Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 78 (8101) CÜMƏ, 12 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Müəllifi İlham Əliyevdir



## Qafqazın ilk peyk operatoruna sahib olan ölkəmiz 6 ildə kosmosa 3 peyk göndərib

# Azərbaycan dünyaya həm də kosmosdan baxır

**"Kəhkəşan yolu", "Böyük süd yolu"...**

**Peyk əməliyyatları, uçuş dinamikası, fəzadakı görüntülər...**

**Avropada, Amerikada deyilik... Azərbaycandayıq.**

**Bu, xəyal da deyil, gerçəklikdir. Bir vaxtlar təsəvvürümüzdə canlandırdığımız prosesin real mənzərəsi ilə üz-üzəyik...**

**Bura "Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzidir...**

**Bu gün, yəni 12 aprel təqvim günü Ümumdünya Aviasiya və Kosmonavtika Günü kimi qeyd edilir. Biz də jurnalist marağı ilə dünyanı peyk nəzarətində saxlayan "Azərkosmos"a üz tutduq.**

### 4 tikilidən ibarət peyk idarəetmə kompleksi



Hava çox küləklidir. Amma bu ərazi kompleks üçün xüsusi olaraq seçilib. Bakı-Şamaxı avtomagistralının 37-ci kilometrliyindəki Babacan qış otlaq sahəsi "Azərkosmos"un idarəetmə mərkəzi üçün əlverişli sahədir.

Şirkətin Korporativ Kommunikasiya Departamentinin direktoru Aysel Soltanova deyir ki, 10 hektar sahəni əhatə edən peyk idarəetmə kompleksi üçün bu ərazinin seçilməsini bir sıra amillər şərtləndirib. Belə ki, bu zaman peykin yerləşdiyi orbital mövqeyə daha açıq və maneəsiz baxış bucağının olması, ərazinin üzərindən hava nəqliyyatı xətlərinin keçməməsi kimi amillər nəzərə alınıb. Kompleks özü 4 tikilidən ibarətdir: əsas bina, texniki bina, nəzarət-buraxılış məntəqəsi və üstüörtülü avtomobil dayanacağı.

Kompleksin yerləşdiyi ərazi iqlim və relyef baxımından mürəkkəb xarakterlidir. Burada yay ayları qızmar, qış isə sərt keçir. Bu məqsədlə əsas inzibati bina relyefə elə yerləşdirilib ki, şimal küləklərindən qorunma, istilik enerjisinə qənaət və ətraf mühitə uyğunlaşma təmin edilsin.

Az-az layihələr var ki, onlar həm gündüz görünüşdən, həm də gecə görünüşündən eyni dərəcədə uğurlu alınsın. Mərkəz bu tip nadir binalardandır, burada həm gündüz, həm də gecə görüntüsü bir-birindən özünəməxsus gözəlliyi ilə fərqlənir.

Ardı 5-ci səh.

# Tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı

**Azərbaycan xalqı 2018-ci ilin 11 aprelində keçirilən prezident seçkilərində növbəti dəfə özünün təhlükəsiz və firavan gələcəyinə səs verdi.**



Ölkəmizin həyatında çox mühüm əhəmiyyət kəsb edən 2018-ci ilin 11 aprelində keçirilən prezident seçkilərindən 1il ötür. Həmin seçkilərdə xalqın mütləq əksəriyyətinin etimadını qazanan cənab İlham Əliyevin növbəti dəfə Prezident seçilməsi Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni və mənəvi həyatında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Bu seçim Azərbaycanda bərqərar olan sabitliyin, əmin-amanlığın dönməzliyini təmin etdi. Bu bir il zaman baxımından qısa, lakin görülən işlərin məna yükünə və mahiyyətinə görə əvvəlki dönəmlərdən bir çox üstünlükləri, xüsusiyyətləri ilə fərqlənən və yadda qalan bir il oldu. Seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidin anonsunu verən cənab İlham Əliyevin rəhbərliyi ilə əvvəlki illərdə böyük zəhmət və səylər nəticəsində əldə olunmuş möhtəşəm uğurların yaratdığı imkanlardan istifadə edərək xalqın istək və arzularına, maraqlarına uyğun olan daha güclü və qüdrətli dövlət formalaşdırılmasını hədəfləmişdi.

Qlobal böhranın təsirlərini dəf edərək dinamik inkişafa istiqamətlənmiş milli iqtisadiyyat əhalinin güzəranının daha da yaxşılaşdırılması üçün irimiqyaslı sosial, mədəni, təhsil, hərbi, infrastruktur və s. layihələrin icrasını stimullaşdırır. Xüsusilə əhalinin aztəminatlı təbəqəsinin rifah halının yaxşılaşdırılması üçün həyata keçirilən islahatlar təqdirəlayiqdir. Prezident İlham Əliyevin cari ilin fevral ayının 25-də imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə dair" sərəncamına əsasən müvafiq kateqoriyadan olan vətəndaşlara ödənilən müavinətlər əhəmiyyətli dərəcədə artırılıb, problemli kreditlərlə bağlı mühüm addımlar atılıb. Ümumiyyətlə, respublikamızda ötən il elan olunan və uğurla reallaşdırılan sosial paketin əhatə dairəsi kifayət qədər genişdir. Cari ilin əvvəlindən dövlət başçısının imzaladığı çoxsaylı sərəncamlar əsasında minimum əməkhaqqının məbləği 180 manata çatdırılıb, tələbələrə verilən təqaüdlər, əmək pensiyasının minimum məbləği artırılıb, problemli kreditlərin həlli ilə bağlı mühüm addımlar atılıb. Sosial dövlət olaraq Azərbaycanda ədalətli resurs bölgüsü həyata keçirilir, qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənir. Aparılan davamlı sosial siyasət demoqrafik inkişafa da müsbət təsir göstərir. Müasir Azərbaycanın mənzərəsini səciyyələndirən əsas cəhətlərdən biri də odur ki, ölkənin dinamik iqtisadi inkişafı geniş məzmunlu sosial siyasətlə tamamlanır. Bütün görülən işlərin mərkəzində insanların rahat, firavan həyatının təmin olunması, vətəndaş məmnunluğunun bərqərar olması, "xalq-iqtidar" birliyinin real əməldə təcəssüm etdirilməsi dayanır. Bütün bunlara görə seçkidən sonrakı bir ili ən yüksək vətəndaş məmnunluğunun təmin olunması ili kimi xarakterizə etmək olar.

Həyatımızın elə bir sahəsi yoxdur ki, orada dirçəliş, çiçəklənmə, yenilik hiss edilməsin. Ölkəmizin imkanlarının artması dövlət və cəmiyyət həyatının bütün sahələrinə təsir göstərir. Hakimiyyət sükanının arxasında durduğu ilk gündən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağını vəd edən və 15 ildən artıq dövr ərzində sözlə əməlin vəhdətini ortaya qoyan ölkə rəhbəri cənab İlham Əliyev bütün səy və bacarığını respublikamızın davamlı inkişafına, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə, mədəni və elmi cəhətdən çiçəklənməsinə sərf etmişdir.

Namizəd olduğu bütün prezident seçkilərində xalqın inam və etimadını qazanmış İlham Əliyev 2003-cü ildən bəri mövcud resursları səmərəli şəkildə səfərbər edərək əvvəlki dövrlərdəki inkişaf konsepsiyasının yeni keyfiyyətdə, daha yüksək səviyyədə reallaşdırılmasına nail olmuşdur. Onun yönləndirdiyi strateji istiqamətlər dövrün tələblərinə uyğun şəkildə yüksələn xətlə inkişaf etmiş və xalqımızın özünə daha layiqli bir gələcək qurmasına geniş şərait yaratmışdır.

Milli-mənəvi və bəşəri dəyərləri özündə birləşdirən qanunvericiliyimizin daha mükəmməl səviyyəyə çatdırılması, hüquqi dövlət və ordu quruculuğu istiqamətlərində görülmüş genişmiqyaslı işlər, neft strategiyasının uğurlu nəticələri, postneft dövrünə hesablanmış və ölkə rəhbərinin təşəbbüsü və bilavasitə nəzarəti altında həyata keçirilən və mütərəqqi yenilikləri özündə ehtiva edən dövlət proqramları, çevik və mobil idarəetməni təmin edən mütərəqqi struktur dəyişiklikləri, "ASAN" xidmət, strateji yol xəritələri, kosmik layihələr və "Made in Azerbaijan" adı altında dünya ictimaiyyətinə təqdim olunan digər brendlər İlham Əliyevin islahatçı Prezident obrazını formalaşdıran amillərdir. Məhz bu islahatlar ölkəmizə son dövrlər dünyada baş verən iqtisadi və siyasi böhran dalğalarını inamla və qətiyyətlə dəf etməyə imkan vermişdir. Bunun nəticəsidir ki, qısa müddətdə inkişaf sürətinə görə Cənubi Qafqazın lider dövləti statusunu qazanmış Azərbaycan dünya ölkələri sırasında XXI əsrin əvvəllərindən nail olduğu sanballı mövqeyini bu gün də qoruyub saxlamaqda davam edir.

Bu illər ərzində ölkədə uğurla həyata keçirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların, demokratikləşmə prosesinin hüquqi mexanizmi daha da inkişaf etmiş və təkmilləşdirilmişdir. Mövcud qanunlara edilən dəyişikliklər Azərbaycan vətəndaşının bütün həyatını əhatə etməklə ölkə rəhbərliyi tərəfindən aparılan islahatların səmərəliliyinin təmin olunmasını hədəf götürərək ilk növbədə insanların yüksək sosial rifahının, əmin-amanlıq şəraitində demokratik, azad həyat tərzinin təmin olunmasına yönəldilmişdir.

Ötən illərdə ölkədə kadr siyasəti və dövlət idarəçiliyi məsələlərində Azərbaycanın layiqli vətəndaşlarının iştirakının təmin edilməsi, əldə olunan iqtisadi nailiyyətlərdən hamının öz bacarıq, zəhmət və əqli imkanlarına görə bəhrələnməsi ölkədə milli birliyin möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addımlardandır. Milli birliyə yönəlmiş bu fəaliyyətin qayəsində həm də yüksək humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlər dayanmışdır.

Azərbaycanın bugünkü uğurlarını şərtləndirən əsas amillərdən biri də odur ki, öz fəaliyyətində Heydər Əliyevin tövsiyələrinə dönmədən riayət edən, hər zaman humanist dəyərlərə, demokratiya və fundamental insan hüquqları prinsiplərinə sədaqət nümayiş etdirən ölkə rəhbərliyi bu hüquq və azadlıqların etibarlı şəkildə təmin olunmasına xüsusi diqqət yetirir. Müasir inkişaf mərhələsində ortaya qoyulmuş və sərbəst fikir mühitinin ən yüksək tələblərinə uyğun olan belə konstruktiv mövqe ədalətli vətəndaş cəmiyyətinin təşəkkül tapmasına hərtərəfli təminat verir.

*Son illər respublikamızın ictimai-siyasi həyatında baş vermiş ən əhəmiyyətli və önəmli hadisə 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkiləri oldu. Heydər Əliyev ideyalarının möhtəşəm qələbəsi və Yeni Azərbaycan Partiyasının böyük uğuru kimi çağdaş tariximizə yazılmış bu gün həm də sabit, təhlükəsiz və firavan gələcəyə səs vermiş xalqla iqtidarın sarsılmaz birliyinin nümayişi idi.*

Bugünün reallıqları ondan ibarətdir ki, Azərbaycan yerləşdiyi bölgənin ən sabit və ən dinamik inkişaf edən ölkəsidir. Ölkə əhalisi mövcud siyasi kursu dəstəkləyir və bu da vətəndaş həmrəyliyinin təmin olunmasında əsas şərtlərdən biridir. Bütün bunlar isə ahəngdar şəkildə bir-birini tamamlayaraq bütövlükdə Azərbaycan dövlətçiliyinin güclənməsinə, müstəqilliyinin möhkəmlənməsinə, beynəlxalq nüfuzunun yüksəlməsinə və nəhayət, cəmiyyətimizdə bərqərar olunmuş sabitliyin və vətəndaş həmrəyliyinin əbədi olmasına mühüm töhfələr verir.

Əminəm ki, bu uğurların davamını Heydər Əliyev ideyalarının ideoloji sütunu olan Yeni Azərbaycan Partiyasının təkrarsız lideri, xalqın sevimli rəhbəri, ulu öndərin ən sadiq məsləkdaşı, onun həyat və mübarizə yolunun ən istedadlı yetirməsi, xəyalları gerçəkliyə çevirən, hər zaman öz siyasi kredosunu xalqın xidmətçisi olmaqda görən, müasir Azərbaycan dövlətinin islahatçı Prezidenti İlham Əliyev yeni dövrün çağırışlarına uyğun olaraq daha mükəmməl şəkildə həyata keçirilməsini təmin edəcəkdir.

***Bahar MURADOVA,***
***Milli Məclis Sədrinin müavini,***
***YAP İdarə Heyətinin üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru***

## "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri" təsdiq edilsin *(əlavə olunur)*.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2019-cu il*

Avropa Gənclərinin Yay Olimpiya Festivalına 100 gün qalır



# Avropanın idman tarixi yenidən Azərbaycanda yazılacaq

## "Bakı-2019"un məşəli bu gün Romada alovlanır

**Dünyanın idman mərkəzinə çevrilən Azərbaycan iyulun 21-27-də daha bir mötəbər yarışa - Avropa Gənclərinin XV Yay Olimpiya Festivalına evsahibliyi edəcək. Növbəti dəfə belə bir nüfuzlu turnirin ölkəmizə həvalə olunması Azərbaycana yüksək inamın, etibarın daha bir nümunəsidir. "Bakı-2019" bunun daha bir təsdiqi olacaq.**



Paytaxtımızda təşkil olunacaq və yeddi gün davam edəcək yarışa ümumilikdə 50 Avropa ölkəsindən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti qatılacaq. 12 arenada 10 idman növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq.

### Diqqətlər İtaliyaya yönəlir

Ümumiyyətlə, olimpiya oyunlarının bir çox ənənələri, mərasimləri və ayinləri var. Hətta onların bir qismi ilə bağlı sirlər də yalnız son məqamlarda açılır. Olimpiya məşəlinin yandırılması məhz belə sirli-sehrli ənənələrdəndir. Elə bu xüsusda Avropa Gənclərinin Yay Olimpiya Festivalının sayca 15-ci yarışının da məşəl proqramı açıqlanıb. Belə ki, məşəlin bu gün İtaliyanın paytaxtı Romada alovlandırılması mərasimi keçiriləcək. Eyni zamanda festivalın simvolu sayılan zeytun ağacı Azərbaycana təqdim olunacaq.

Ardı 6-cı səh.



## Azərbaycan Prezidentinin tapşırığı ilə İrana göndərilən humanitar yardım ünvana çatdırılıb

İran İslam Respublikasında aramsız yağan yağışlar nəticəsində baş vermiş təbii fəlakətlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin Azərbaycan hökuməti adından aprelin 10-da bu ölkəyə göndərdiyi humanitar yardım ünvana çatdırılıb və aidiyyəti üzrə təhvil verilib.

Bu barədə AZƏRTAC-a Fövqəladə Hallar Nazirliyindən məlumat veriblər. Xatırladaq ki, ümumi dəyəri 950 min manat olan humanitar yardıma 166 ədəd mətbəx dəsti, 3 min ədəd yataq dəsti, 75 ədəd çadır, 150 ədəd müxtəlif parametrli su nasosu, 5 ədəd 4 metrlik rezin qayıq, 140 ədəd işçi geyimi, 320 xilasedici geyim dəsti və 200 ədəd xilasedici jilet, "Katerpiller" və "Komatsu" markalı 2 ədəd ekskavator daxildir.

Qeyd edək ki, İranda baş vermiş təbii fəlakət insan itkisinə və dağıntılara səbəb olub, infrastruktura ciddi ziyan dəyib.

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında əsasnamə

1. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı Azərbaycan Respublikası Prezidentinin rəsmi hərbi simvoludur.

2. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı 3 növdə hazırlanır:

2.1. etalon (bayrağın orijinalı) - Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Prezident Sarayında yerləşən xidməti otağında saxlanılır;

2.2. dublikat (bayrağın surəti) - Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi iştirak etdiyi rəsmi tədbirlərin və digər mərasimlərin keçirilməsi zamanı və o, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin struktur qurumlarına gəldikdə həmin tədbirin keçirildiyi binanın üzərində, olduğu gəmidə və ya həmin tədbir üçün nəzərdə tutulan salonda (otaqda) qaldırılır (asılır) və ya yerləşdirilir;

2.3. kiçildilmiş ölçülü dublikat (nəqliyyat üçün) - Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi səfərləri zamanı nəqliyyat vasitəsində quraşdırıla bilər.

3. Ölçülərindən asılı olmayaraq, bayrağın bütün dublikatları onun etalonunun (orijinalının) təsviri, rəng çalarları və ölçüləri nisbəti ilə eyni olmalıdır.

4. Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, qarşıdan baxıldıqda Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı Dövlət Bayrağından sağda yerləşdirilir.

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri

1. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinə tam uyğun şəkildə, ikiüzlü qumaşdan hazırlanır və eninin uzunluğuna nisbəti 1:2-dir.

2. Bayrağın hər iki üzünün ortasında Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının emblemi təsvir edilmişdir. Qumaşın üst kənarı boyu mavi zolaqda qızılı rəngli hərflərlə "AZƏRBAYCAN RESPUBLİKASI", aşağı kənarı boyu yaşıl zolaqda isə "SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANI" sözləri yazılmışdır.

3. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının emblemi tiyələri yuxarı yönəlmiş çarpazlaşdırılmış qılıncların iti ucları arasında yerləşən Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirindən ibarətdir. Qılıncların tiyələrinin aşağı əsaslarından uclarına doğru hər iki tərəfə dəfnə budaqları yönəlmişdir. Dəfnə budaqları və qılıncların dəstəkləri qızılı, tiyələri isə gümüşü rəngdədir.

*"Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri"nə əlavə*




Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı

4. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının dirəyi girdə taxtadandır. Dirək tünd qəhvəyi boya ilə rənglənir, laklanır və yuxarı ucu aypara ilə səkkizguşəli ulduz formalı nikellənmiş metal başlıqla örtülür.

## Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 7,0 (yeddi) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2019-cu il*

## Valentina MATVİYENKO: "Rusiya ilə Azərbaycan strateji tərəfdaşlardır"



Aprelin 11-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko ilə görüşüb.

Əvvəlcə parlament sədrlərinin təkbətək görüşü olub. Sonra görüş geniş tərkibdə davam etdirilib.

Milli Məclisin Sədri Oqtay Əsədov bu səfərin Azərbaycan-Rusiya münasibətlərinin inkişafına, həmçinin parlamentlərarası əlaqələrimizə yeni impuls verəcəyinə əminliyini ifadə edib. "Rusiya Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir. O zamanlardan bəri ölkələrimiz arasında güclü strateji tərəfdaşlıq formalaşıb. Dövlətlərimizin başçıları ikitərəfli münasibətlərimizin inkişafına böyük töhfə veriblər. Onların arasında dərin siyasi münasibətlər, sıx dostluq əlaqələri mövcuddur", - deyə Oqtay Əsədov bildirib.

Azərbaycan parlamentinin sədri deyib ki, dövlətlərimizin başçılarının çoxsaylı görüşləri və səfərləri ikitərəfli möhkəm hüquqi baza yaranmasına imkan verib. Azərbaycanla Rusiya arasında dövlət və hökumət səviyyəsində 227 ikitərəfli sənəd imzalanıb.

Qeyd edilib ki, ölkələrimiz arasında iqtisadi münasibətlər də yüksək səviyyədədir. Rusiya Azərbaycanın ən vacib ticarət tərəfdaşlarından biridir. 2018-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 19 faiz artıb. Hər il Rusiya-Azərbaycan Regionlararası Forumu keçirilir. Rusiyanın subyektləri ilə Azərbaycan arasındakı münasibətlər də gündən-günə genişlənməkdədir.

"Humanitar səviyyədə də əlaqələrimiz inkişaf edir. Azərbaycanda hər zaman rus dilinə və mədəniyyətinə diqqətlə yanaşılıb. Bu gün Azərbaycanda Slavyan Universiteti, 300-dən çox rusdilli orta məktəb fəaliyyət göstərir. Ölkəmizin 27 ali məktəbində rus dilində dərslər tədris olunur. Azərbaycanda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filiallarında azərbaycanlı tələbələr təhsil alır. Ölkəmizdə ən böyük icma rus icmasıdır", - deyə Oqtay Əsədov bildirib.

Milli Məclisin Sədri Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq bu məsələnin sülh yolu ilə tezliklə aradan qaldırılmasının region üçün əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Azərbaycanın münaqişənin həlli ilə bağlı mövqeyi beynəlxalq ictimaiyyətə yaxşı məlumdur. Münaqişə beynəlxalq hüququn normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz ədalətli həllini tapmalıdır.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko deyib ki, ölkələrimiz arasında sıx əlaqələr mövcuddur. Bunun sayəsində biz hər zaman açıq dialoq aparırıq, ikitərəfli münasibətlərimizin inkişafı məsələlərini, mövcud problemlərin aradan qaldırılması yollarını müzakirə edirik. Bu dialoq çox dəyərlidir. Xalqlarımızı həm də çoxəsrlik dostluq əlaqələri, ortaq tarix, mədəniyyət birləşdirir.

Rusiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasından 27 il keçdiyini deyən Valentina Matviyenko qeyd edib ki, ötən müddət ərzində əməkdaşlığımız bütün sahələrdə genişlənib və strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Dövlətlərimizin başçıları arasında sıx şəxsi dostluq əlaqələri və etibarlı münasibətlər var. Bu da Rusiya-Azərbaycan münasibətlərinin ab-havasını təyin edir. Şadıq ki, hökumətlərarası münasibətlərimiz də inkişaf edir.

"Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il sentyabrın 1-də Rusiyaya səfəri Rusiya-Azərbaycan münasibətlərinin ən vacib hadisələrindən biri olub. Həmin səfər zamanı dövlətlərimizin başçıları arasında konstruktiv danışıqlar aparılıb, 15-dən çox vacib sənəd imzalanıb", - deyə Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri bildirib.

Ticari-iqtisadi əməkdaşlıqdan danışan Valentina Matviyenko deyib ki, keçən il ölkələrimiz arasında ticarət dövriyyəsi 2,5 milyard ABŞ dolları təşkil edib. Rusiya Azərbaycanla iqtisadi əməkdaşlığa önəm verir. Rusiya Azərbaycan iqtisadiyyatına 1,5 milyard ABŞ dolları məbləğində investisiya yatırıb. Rusiyadan Azərbaycana gələn turistlərin sayı da artıb. Keçən il 800 min rusiyalı turist Azərbaycanı ziyarət edib.

Ölkəmizin inkişafından danışan xanım Valentina Matviyenko qeyd edib ki, Azərbaycan sürətlə inkişaf edir. Burada mədəni, idman tədbirlərinin keçirilməsi üçün gözəl imkan var.

Valentina Matviyenko deyib ki, Rusiya ilə Azərbaycan arasında humanitar əməkdaşlıq da sürətlə inkişaf edir. Rusiyanın ali məktəblərində təqribən 15 min azərbaycanlı tələbə təhsil alır. Azərbaycanda rus dilinin və mədəniyyətinin qorunması Rusiyada yüksək dəyərləndirilir. Rusiya da həmçinin Azərbaycan dilinin, mədəniyyətinin qorunub saxlanılmasına çalışır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri bildirib ki, onun ölkəsi münaqişənin sülh yolu ilə həll olunmasına səy göstərir. Bu münaqişənin həllinin başqa yolu yoxdur. Rusiya Dağlıq Qarabağ probleminin həlli istiqamətində səylərini azaltmayacaq.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***
***Foto Fərman BAĞIROVUNDUR***

## "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" 2019-cu il martın 19-da Astana şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2019-cu il*

## "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında müasir dövrdə millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüquq normalarına və zəngin tarixi köklərə əsaslanır. Dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. Beynəlxalq ictimaiyyəti narahat edən humanitar problemlər 2008-ci ildən etibarən, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsini nəzərdə tutan "Bakı prosesi" çərçivəsində müzakirə olunur, dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri, dövlət rəsmiləri, nüfuzlu alim və ziyalıları arasında səmərəli fikir mübadiləsi aparılır. Bu baxımdan, 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş sammitini sivilizasiyalararası dialoqun inkişafına, müxtəlif dini konfessiyaların əməkdaşlığının genişlənməsinə, eləcə də qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfə hesab etmək olar.

Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində Bakıda növbəti beynəlxalq sammitin keçirilməsi, ayrı-ayrı regionlarda gedən mürəkkəb etnik-dini proseslərin və qloballaşan dünyanın müasir çağırışlarının nüfuzlu dini-ictimai xadimlərin iştirakı ilə birgə müzakirəsi aktuallıq kəsb edən məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dünya dini liderlərinin II Bakı sammiti"nin 2019-cu il 14-15 noyabr tarixlərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsinin üzvləri**

Şeyxülislam Allahşükür Paşazadə - Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin sədri

Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri

Əli Həsənov - Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri

Etibar Nəcəfov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət naziri

Mübariz Qurbanlı - Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

Vüsal Hüseynov - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Ülvi Mehdiyev - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Ramiz Həsənov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İsa Həbibbəyli - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Siyavuş Novruzov - Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri

Aslan Aslanov - Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri

Rövşən Məmmədov - "Azərbaycan Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini

İsmayıl Hacıyev - Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin sədri

Aleksandr İşein - Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu

Milix Yevdayev - Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri

Salman Musayev - Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini

Vasim Məmmədəliyev - Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Qafqaz Müsəlmanları İdarəsi Elmi Dini Şurasının sədri.

2. Bu sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsinə dair Tədbirlər Planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2019-cu il*

## Pekində "Cənubi Qafqaz regionunda Azərbaycanın əhəmiyyəti və Azərbaycan-Çin münasibətləri" mövzusunda mühazirə təşkil edilib





Çinin ən nüfuzlu ali təhsil ocaqlarından biri və əsasən Çin Xarici İşlər Nazirliyi üçün diplomatların hazırlanması ilə məşğul olan Pekin Xarici Dillər Universitetində "Cənubi Qafqaz regionunda Azərbaycanın əhəmiyyəti və Azərbaycan-Çin münasibətləri" mövzusunda mühazirə təşkil edilib.

AZƏRTAC xəbər verir ki, universitet rəhbərliyinin, müəllim və tələbələrin, habelə Azərbaycanla bağlı araşdırma aparan tədqiqatçıların iştirak etdikləri mühazirədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müsəlman Şərqində ilk dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, fəaliyyətindən, XX əsrin sonunda ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra üzləşdiyi çətinliklərdən və təhdidlərdən danışıb. Bildirib ki, bir çox maraqların toqquşduğu Cənubi Qafqaz bölgəsində yerləşən Azərbaycan Ermənistanın hərbi təcavüzü ilə müstəqilliyinin ilk illərində ciddi problemlərlə qarşılaşıb. Amma ulu öndər Heydər Əliyevin və onun siyasi varisi Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycan çətinliklərin öhdəsindən gələrək davamlı inkişafa nail olmağı bacarıb. Azərbaycan özünün coğrafi şəraiti, iqtisadi potensialı, təbii resursları ilə bölgədə yeni əməkdaşlıq platformaları yaradıb. Məhz ölkəmizin liderliyi və qətiyyəti sayəsində Xəzər dənizi-Qara dəniz-Aralıq dənizini, hətta Adriatik dənizini birləşdirən regional layihələr icra olunur.

Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident Administrasiyasının şöbə müdiri Çinin də daimi üzvü olduğu BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnamənin tələblərinin hələ də yerinə yetirilməməsindən təəssüfünü ifadə edib. O, Azərbaycanın bu münaqişənin həlli ilə bağlı beynəlxalq hüquq normalarına əsaslanan ədalətli mövqeyi barədə məlumat verib.

Mühazirə zamanı Azərbaycan-Çin münasibətlərinin bütün sahələrində müşahidə olunan inkişafın hər iki tərəf üçün faydalı olduğu bildirilib, Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün həyata keçməsinə Azərbaycanın özünün nəqliyyat-logistika imkanları ilə verdiyi töhfələr vurğulanıb.

Qeyd olunub ki, Azərbaycanın Çin vətəndaşları üçün tətbiq etdiyi sadələşdirilmiş viza rejimi və "ASAN Viza" sistemi daha çox çinli turistin Azərbaycana səfər etməsinə imkan yaradır.

Sonra iştirakçıların müxtəlif mövzularda sualları cavablandırılıb.

Ümumilikdə 101 xarici dilin tədris olunduğu Pekin Xarici Dillər Universitetinin rektoru Pen Lon ilə görüşdə ölkələrimizin humanitar, o cümlədən elm və təhsil sahələrində əməkdaşlığından danışılıb. Bildirilib ki, bu təhsil ocağında Azərbaycan dili üzrə kadrların hazırlanması ölkələrimiz arasında əməkdaşlığın digər sahələrdə də inkişafına müsbət təsirini göstərəcək.

Hikmət Hacıyev universitetin Azərbaycan dili kafedrası ilə tanış olub, bu ixtisas üzrə təhsil alan tələbələrlə görüşüb.

# Bakıda Rusiya Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi olub

## Mərasimdə "Kreml baleti" teatrı "Min bir gecə" baletini təqdim edib






Aprelin 11-də Heydər Əliyev Sarayında Rusiya Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mərasimi açan mədəniyyət naziri Əbülfəs Qarayev Azərbaycanda Rusiya Mədəniyyəti Günlərinin keçirilməsinin iki xalqın həyatında əlamətdar hadisə olduğunu diqqətə çatdırıb. Nazir deyib: "Bu gün dünya şöhrətli "Kreml baleti" teatrı görkəmli Azərbaycan bəstəkarı, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı Fikrət Əmirovun "Min bir gecə" baletini təqdim edəcək. Qeyd etmək istəyirəm ki, bugünkü tamaşanın səhnə tərtibatçısı Azərbaycan mədəniyyətinin daha bir görkəmli nümayəndəsi - xalq rəssamı Tahir Salahovdur. "Min bir gecə" baletinin nümayişi görkəmli fırça ustasının 90 illik yubileyinə həsr olunub. Vurğulamaq istəyirəm ki, Azərbaycanı və Rusiyanı bir çox sahələrdə səmimi mehriban qonşuluq əlaqələri birləşdirir. Ölkələrimizin mədəniyyət xadimləri, incəsənət ustaları, yaradıcı



kollektivləri həm Rusiyada, həm də Azərbaycanda keçirilən bir çox festivallarda, simpoziumlarda, forumlarda və digər tədbirlərdə iştirak edirlər. İki ölkənin Mədəniyyət nazirlikləri arasında əməkdaşlığa dair bir sıra sənədlər imzalanıb. Bir daha burada toplaşanları bu əlamətdar hadisə münasibətilə təbrik edirəm".

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri xanım Valentina Matviyenko səmimi qəbula və Azərbaycanda Rusiya Mədəniyyəti Günlərinin keçirilməsində dəstəyinə görə Azərbaycan Respublikasının hökumətinə təşəkkürünü bildirib. O qeyd edib ki, Azərbaycan və Rusiya xalqlarını çoxəsrlik dostluq əlaqələri və ortaq tarixi inkişaf yolu birləşdirir. Məhz bu, iki dövlətin strateji tərəfdaşlıq səviyyəsində gələcək əməkdaşlığına şərait yaradır. Federasiya Şurasının sədri deyib: "Ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsində aralarında səmimi, etimada söykənən münasibətlərin olduğu prezidentlər Vladimir Putinin və İlham Əliyevin mühüm rolu var. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Federasiya Şurası və Milli Məclis uzun illərdir daimi qarşılıqlı fəaliyyət göstərirlər".

Valentina Matviyenko Rusiya və Azərbaycanın yaxınlaşmasında, xüsusən humanitar sahədə əlaqələrin möhkəmlənməsində mühüm rola malik olan Bakı Beynəlxalq Humanitar Forumunu mötəbər dialoq məkanı adlandırıb. O deyib: "Azərbaycanda rus dilinin qorunub saxlanılmasını və təbliğini Rusiyada yüksək qiymətləndirirlər. Azərbaycanda Rusiyanın aparıcı ali məktəblərinin filialları, rus dilində təhsil verən məktəblər fəaliyyət göstərir, uzun illər ərzində Rus Dram Teatrı və digər mədəniyyət ocaqları işini davam etdirir. Bütün bunlara görə rusiyalıların hamısının adından Azərbaycan Respublikasının rəhbərliyinə dərin minnətdarlığımı bildirmək istəyirəm".

Sonra "Min bir gecə" baleti nümayiş olunub. Tamaşaçılar "Kreml baleti" teatrının artistlərinin ifasında Şəhrizadın nağıllarının sevimli personajlarını səhnədə gördülər.

Tamaşa böyük maraqla qarşılanıb.

# Məcburi köçkünlərin və şəhid ailələrinin sosial müdafiəsi Prezident İlham Əliyevin siyasətində mühüm yer tutur

Aprelin 11-də Ağcabədi rayonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi sahədə uğurla reallaşdırılan islahatlara, o cümlədən məcburi köçkün və şəhid ailələrinin sosial müdafiəsi istiqamətində görülən işlərə həsr olunmuş regional müşavirə keçirilib.




AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədovun, Milli Məclisin bir qrup deputatının, Yeni Azərbaycan Partiyasının Mingəçevir, Yevlax, Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Laçın, Goranboy və Xocalı rayon təşkilatlarının fəallarının, eləcə də Ağcabədi rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsi ziyarət edilib.

YAP siyasi şurasının üzvü, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov müşavirəni açaraq ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi islahatlardan danışıb. Bildirib ki, 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərindən bir il keçir. Ötən müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çox böyük işlər görülüb, çoxsaylı uğurlara imza atılıb. Həyata keçirilən islahatlar nəticəsində əhalinin rifah halı daha da yaxşılaşıb, ölkəmizin beynəlxalq aləmdə nüfuzu yüksəlib.

Müşavirədə çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə edilən uğurlardan bəhs edib. Bildirib ki, bir il əvvəl Azərbaycan xalqı öz seçimini edərək Prezident İlham Əliyevi 2025-ci ilədək dövlət başçısı vəzifəsinə seçiblər. Xalq tərəfindən növbəti dəfə belə bir seçimin edilməsi vətəndaşların ulu öndər Heydər Əliyevin siyasətinə hörmətinin, inamının ifadəsi, həmçinin Prezident İlham Əliyevə bundan əvvəlki fəaliyyəti dövründə Azərbaycanın inkişafı yolunda əldə etdiyi nailiyyətlərinə, uğurlarına verilən qiymətdir.

Əli Əhmədov deyib: "Vətəndaşlarımızın sosial problemlərinin həll olunması, onların rahat yaşamaları üçün şəraitin təmin edilməsi istiqamətində böyük işlər görülür. Minimum pensiya məbləğinin, minimum əməkhaqqının 40 faiz artırılması müvafiq olaraq 233 min və 600 min nəfərin rifahına təsir edəcək. Əlillərin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı çox ciddi güzəştlər tətbiq edilib, aldıqları müavinətlərin səviyyəsi artıb. Elə bir təbəqə qalmayıb ki, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün bu və ya digər formada güzəşt və müavinətlər artırılmasın. O cümlədən məcburi köçkünlər üçün verilən müavinətlər də 50 faiz artırılıb. Prezidentin həyata keçirdiyi siyasətin əsas məqsədi, başlıca niyyəti insanların rifah halının yaxşılaşdırılması, onlara göstərilən qayğının daha da artırılması və həyat səviyyəsinin yüksəldilməsidir. Təbii ki, bütün bunların hamısı iqtisadi bazanın yaradılması sayəsində mümkün ola bilər. Ona görə də bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında, dövlət başçısının birbaşa təşəbbüsü ilə genişmiqyaslı iqtisadi islahatlar həyata keçirilir".

Qeyd olunub ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə əlaqədar görülən tədbirlər kəndlərdə yaşayan insanların həyatında çox mühüm dəyişikliyə səbəb olub. Dövlətin dəstəyi ilə özünüməşğulluq proqramı həyata keçirilir ki, bu da aztəminatlı ailələrin işlə təmin olunmasına, həyat səviyyələrinin yüksəldilməsinə hesablanıb. Bütövlükdə Azərbaycanda son 15 ildə insanların işlə təmin olunması istiqamətində əhəmiyyətli addımlar atılıb. İki milyona yaxın yeni iş yerinin yaradılması Azərbaycan Prezidentinin atdığı ən ciddi sosial addımdır. İnsanların həyatının yaxşılaşdırılması Prezidentin həyata keçirdiyi strategiyanın əsasını təşkil edir. Dövlət başçısının rəhbərliyi ilə uğurla reallaşdırılan davamlı islahatlar, ilk növbədə, vətəndaşların maraqlarına, onların rifahının yaxşılaşmasına xidmət edir.

"Azərbaycanda həyata keçirilən sosial siyasətin vacib istiqamətlərindən biri məcburi köçkünlərin rifahının, yaşayışının yaxşılaşdırılması ilə əlaqədardır. İlham Əliyev 2003-cü ildə Prezident seçiləndən sonra çadır şəhərcikləri ləğv edildi. Çadırlarda, vaqonlarda çox ağır şəraitdə yaşayan insanlar müasir qəsəbələrdə, yaşayış massivlərində rahat mənzillərlə təmin edildi. Məcburi köçkünlərin işlə təmin olunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Bizim hədəfimiz məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını təmin etməkdir. Bu vəzifə öz həllini tapana qədər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ədalətli şəkildə həll olunana qədər insanların layiqli yaşayışının təmin edilməsi üçün tədbirlər həyata keçiriləcək", - deyə Əli Əhmədov qeyd edib.

Tədbirdə Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Tahir Rzayev, YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya, YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev, YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov mövzu ilə bağlı çıxış ediblər.

# Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko Azərbaycana rəsmi səfərə gəlib

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko aprelin 11-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Valeh Ələsgərov və digər rəsmi şəxslər qarşılayıblar.



# *Səməd SEYİDOV:* "Ermənistanın baş naziri AŞ PA-dakı çıxışı ilə göstərdi ki, o, girov vəziyyətindədir"

Təəssüf ki, Ermənistan rəhbərliyi yenə də reallığı əks etdirməyən fikirlər səsləndirdi, dünya ictimaiyyətini, Avropa Şurasının üzvlərini tamamilə yanlış bir yola istiqamətləndirmək niyyətini göstərdi.



Bu fikri Ermənistanın baş naziri Nikol Paşinyanın AŞ PA-dakı çıxışından sonra Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində bildirib.

Səməd Seyidov qeyd edib ki, Ermənistan baş nazirinin çoxlu məntiqi qüsurlara yol verməsi onun çıxışının yalanlarla dolu olduğunu bir daha göstərdi. Paşinyan deyir ki, özündən əvvəlki prezidentlər cinayətlər törədib, Ermənistan iqtisadiyyatını dağıdıb, dövlətin pullarını mənimsəyiblər deyə həbs ediliblər. Onlar cinayətkardır və bu səbəbdən həbsxanadadırlar. Ancaq unudur ki, elə həmin cinayətkarlar Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və onun ətrafındakı 7 rayonu işğal ediblər. Bir cinayəti qəbul edib, digərini qəbul etmirsə, deməli o, cinayətə bəraət qazandırmaq istəyir. Bu isə beynəlxalq təşkilatları və ictimaiyyəti aldatmaqdan başqa bir şey deyil. Bütün beynəlxalq təşkilatlar, ATƏT, Minsk qrupu danışıqların formatının dəyişdirilməməsi haqqında bəyanat veriblər. Amma Ermənistanın baş naziri çıxışında əvvəl deyir formatı dəyişmək istəmirik, sonra isə deyir ki, bəs Dağlıq Qarabağda yaşayan insanları dəvət etmək istəyirik.

S.Seyidov qeyd edib ki, Dağlıq Qarabağın sakinləri təkcə ermənilər deyil. Dağlıq Qarabağda azərbaycanlılara qarşı etnik təmizləmə apardıqdan sonra erməniləri danışıqlara gətirmək heç bir məntiqə uyğun deyil. Paşinyan məğlub olduğunu anlayır, bilir ki, geriyə yol yoxdur. Azərbaycanın təşəbbüsü olub ki, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının üzvləri görüşüb danışsınlar. Ancaq Ermənistan bizim bu təşəbbüsün əleyhinə çıxdı. Ermənistan hər iki icmanın üzvlərinin görüşüb danışmasına etiraz etdi. Ermənistanın baş naziri bu çıxışla Avropa Məhkəməsinin "Çıraqov və başqaları Ermənistana qarşı" işi ilə bağlı qərarını inkar edərək beynəlxalq ictimaiyyəti aldatmağa cəhd edir. Ümumiyyətlə, bu çıxış aydın göstərdi ki, Ermənistan rəhbəri girov vəziyyətindədir. Girov vəziyyətində fəaliyyət isə xalq üçün faciənin hazırlanması deməkdir.

S.Seyidov vurğulayıb ki, bu gün Azərbaycan torpaqlarının işğal edilməsi ilə bağlı faktlar beynəlxalq ictimaiyyətə, eləcə də Avropa Şurası üzvlərinə məlumdur. Dünən AŞ PA-nın sessiyası çərçivəsində "Azərbaycanın işğal olunmuş ərazilərində və onlara münasibətdə qanunsuz fəaliyyətlər: Avropa Şurası qarşısında götürülmüş öhdəliklər baxımından nəticələr" adlı çox uğurlu panel iclasımız oldu. Faktlar, dəlillər geniş ictimaiyyətə yayılıb. Beynəlxalq səviyyəli sənədlərimiz var.

"Düşünürdüm ki, Ermənistan rəhbərinin çıxışı haradasa etiraf xarakterli, müəyyən edilmiş istiqamətdə olacaq. Amma təəssüf ki, yenə də yanlış istiqamətdə oldu", - deyə nümayəndə heyətinin rəhbəri bildirib.

# *Rusiya Federasiya Şurasının sədri:* "Parlamentlərarası əməkdaşlıq üzrə fəaliyyətimizi uyğunlaşdırmağın vaxtıdır"

Azərbaycan və Rusiya arasında parlamentlərarası əməkdaşlıq üzrə fəaliyyətimizi uyğunlaşdırmağın vaxtıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Heydər Əliyev Beynəlxalq Aeroportunda jurnalistlərə müsahibəsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko söyləyib.



Xanım Valentina Matviyenko deyib ki, Federasiya Şurasının nümayəndə heyətinin Azərbaycana yenidən səfər etməsindən məmnundur. O, eyni zamanda, sonuncu dəfə Azərbaycana beş il əvvəl səfər etdiyini xatırladaraq deyib: "Rusiya-Azərbaycan əlaqələri bütün istiqamətlərdə - siyasi, iqtisadi, energetika, humanitar və digər sahələrdə çox fəal inkişaf edir. Bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib".

Federasiya Şurasının sədri vurğulayıb ki, Rusiya-Azərbaycan münasibətlərində ən mühüm hadisə ötən ilin sentyabrında Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri, onun Prezident Vladimir Putinlə əhatəli danışıqları olub. Bu səfər çərçivəsində 15-dən çox mühüm sənəd imzalanıb. Onların arasında Rusiya və Azərbaycan hökumətlərinin əməkdaşlığına dair proqram, həmçinin konkret, məzmunlu, zəngin, o cümlədən əlaqələrin inkişafını ehtiva edən Fəaliyyət Planı var.

Federasiya Şurasının sədri deyib ki, onun rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfərinin məqsədi iki ölkənin parlamentlərinin bu irimiqyaslı planın həyata keçirilməsində rolunu və yerini Azərbaycanın Milli Məclisində müzakirə etməkdir. Bu, öz növbəsində, Rusiya-Azərbaycan münasibətlərinə yeni güclü impuls verəcək. Yəni, parlamentlərin işgüzar iqtisadi əməkdaşlıq, regionlar arasında qarşılıqlı fəaliyyət, o cümlədən humanitar sahədə daha əlverişli şəraitin yaradılması üçün hansı işləri görə biləcəkləri və görməli olduqlarını müzakirə edəcəyik. Bizim gündəliyimiz çox böyükdür, danışmağa mövzu çoxdur, parlamentlərarası əməkdaşlığın yeni formatlarını müəyyənləşdirməli və təsdiq etməliyik. Çünki parlamentlər arasında əməkdaşlıq həmişə dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsidir.

Xanım Valentina Matviyenko onu da qeyd edib ki, bu gün Azərbaycanda Rusiya Mədəniyyəti Günlərinin açılış mərasimində iştirak edəcək. O deyib: "Bu, gözəl, maraqlı və yaxşı layihədir. Növbəti ildə biz Azərbaycanın mədəniyyət xadimlərini Rusiyada gözləyəcəyik, həmçinin təhsil və mədəniyyət sahələrində gələcək əməkdaşlığımızı inkişaf etdirmək məsələsini də müzakirə etmək imkanımız olacaq. Xüsusilə qeyd etmək istəyirəm ki, Rusiyada Azərbaycan Prezidentinin, Azərbaycan rəhbərliyinin rus dilinin, rus mədəniyyətinin dəstəklənməsi üzrə səylərini yüksək qiymətləndirirlər. Bu, təkcə bizim ikitərəfli münasibətlərimiz üçün deyil, həm də ölkələrimizin xalqları arasında ünsiyyət şəraitinin yaradılması baxımından çox mühümdür".

Rusiyada Azərbaycanın mədəniyyətinə böyük maraq olduğunu vurğulayan Valentina Matviyenko deyib: "Biz, həqiqətən də gələn il Rusiyada keçiriləcək Azərbaycan Mədəniyyəti Günlərini səbirsizliklə gözləyəcəyik. Ona görə də Rusiyaya səmimi münasibət göstərən insanların olduğu dost ölkəyə yaxşı əhvali-ruhiyyə ilə gəlmişik. Biz də Rusiyada Azərbaycanın sakinlərinə, vətəndaşlarına çox isti yanaşırıq".

# Məruzələr ölkələrə təzyiq göstərmək üçün siyasi vasitəyə çevrilir

Məruzəçiyə ikiqat təşəkkür etmək istərdim. Birincisi, bütün ölkələri, xüsusilə də Avropa Şurasına üzv olan ölkələri əhatə edən cinayətkarlıq, çirkli pulların yuyulması, qeyri-qanuni iqtisadi fəaliyyətlərə qarşı mübarizə aparmaq kimi vacib məsələ ilə bağlı məruzə hazırlayıb.

İkinci təşəkkürüm isə məruzənin tərtibatına görədir. Cinayətkarlığa qarşı mübarizə elə təqdim olunub ki, onu siyasiləşdirmək, ona siyasi don geyindirərək ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə etmək mümkünlüyü verilib.

Bu fikirləri AŞ PA-nın yaz sessiyasında hollandiyalı deputat Mart van de Veninin hazırladığı "Landromat - mütəşəkkil cinayətkarlıq, korrupsiya və çirkli pulların yuyulmasına qarşı beynəlxalq mübarizədə yeni çağırışlara münasibət" adlı məruzə ilə bağlı çıxışında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib. O, məruzənin vacibliyini qeyd edərək onun siyasiləşdirilməsinə təəssüfünü bildirib.

Qeyd edib ki, bu gün bütün ölkələr bir-biri ilə əlaqədədir. "Landromat" mexanizmi Avropada kəşf edilib, Estoniyada yaradılıb və müxtəlif ölkələrdə tətbiq olunub. Bu problemin əsil səbəbi onu icad edib yaradanlardadır. Bu baxımdan bu problemlə bağlı təkcə bu məruzədə adıçəkilən ölkələrdə deyil, məhz digər "korekt" üzv ölkələrdə də araşdırılmalıdır. Yalnız belə halda bu məruzə obyektiv ola bilər və bu cür cinayətkarlara qarşı ədalətli mübarizə apara bilərik.

"Təəssüflər olsun ki, bu təşkilatda bəziləri bir çox böyük dövlətlərin adını səsləndirməkdən çəkinirlər, çünki qorxurlar. Böyük dövlətlərdə belə araşdırmalar apara bilməzlər. Avropa İttifaqının bəzi ölkələrində belə araşdırmalar aparmağa cürət etmirlər. Məhz buna görə də bu məruzə tənqid olunur. Çünki qorxu əsasında yazılmış məruzə obyektiv ola bilməz. Heç kim, heç bir ölkə mükəmməl deyil. Ancaq barmağı bir ölkəyə tuşlayıb, onun üzərində durmaq mənfi nəticələrə səbəb olaraq təşkilatı daha dərin böhranlara sürükləyəcək", - deyə S.Seyidov diqqətə çatdırıb və deputatları obyektiv olmağa çağırıb.

# Prezident İlham Əliyev verdiyi vədləri qətiyyətlə və istənilən şəraitdə yerinə yetirir

## Fransanın “Opinion Way” şirkətinin Azərbaycan əhalisi arasında keçirdiyi rəy sorğusuna sözardı

Müasir dünyada dövlət başçılarının seçkilərarası dövrdəki reytinqini müəyyənləşdirmək məqsədilə ənənəvi sosioloji sorğular keçirilir. Biz belə sorğuların nəticələrinə əsasən, bir sıra dövlət rəhbərlərinin, o cümlədən ABŞ, Fransa, Cənubi Koreya prezidentlərinin, Almaniya Kanslerinin reytinqlərinin aşağı düşdüyünün şahidi olmuşuq. Reytinqi sabit saxlamaq heç də hər liderə nəsib olmur. Azərbaycan Prezidenti İlham Əliyev isə nəinki 2018-ci il aprel seçkilərində malik olduğu reytinqi qoruyub saxlaya bilib, hətta onu bir qədər də möhkəmləndirib. Fransanın “Opinion Way” şirkətinin mart ayında Azərbaycanda keçirdiyi rəy sorğusu Prezidentin birillik fəaliyyətinin, yürütdüyü daxili və xarici siyasətin bəyənildiyini və təqdir edildiyini təsdiqlədi. Sorğunun bu günlərdə elan olunan nəticələri göstərdi ki, dövlət başçısı yenə də öz seçicilərinin yüksək etimadına və dəstəyinə malikdir. Onun həyata keçirdiyi islahatlar kursuna münasibət çox müsbətdir və bu inqilabi dəyişikliklər xalqın ürəyindən xəbər verir. Sorğuların təkcə paytaxtı deyil, Naxçıvan Muxtar Respublikası istisna olmaqla, bütün bölgələri, əhalinin geniş təbəqələrini əhatə etməsi nəticələrin bütövlükdə ictimai rəylə üst-üstə düşdüyü qənaətinə gəlməyə əsas verir.

### Prezidentin Azərbaycana uğur gətirən fəaliyyətinə verilən yüksək qiymət

Sorğu iştirakçılarına ünvanlanan suallar Prezidentin fəaliyyətinin geniş spektrini əhatə edir. Respondentlər dövlət başçısının son bir ildə gördüyü işləri yüksək qiymətləndirməklə yanaşı, sosial-iqtisadi fəaliyyət, ölkədə aparılan islahatlar, korrupsiyaya qarşı mübarizə tədbirləri, regionların inkişafı, xarici siyasət və digər məsələlərlə bağlı ən müxtəlif sualları cavablandırıblar. Onların 80 faizindən çoxunun fikrincə, Prezident İlham Əliyevin ən böyük uğuru mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanmasıdır. Həqiqətən, sabitlik olmayan yerdə heç bir inkişafdan, irəliləyişdən, rifahdan söhbət gedə bilməz.

Bu uğurların indi - dünyanın təlatümlü bir vaxtında qazanılması onların dəyərini daha da artırır. Planetimizdə və regionumuzda yaşanan çoxsaylı mənfi proseslərə baxmayaraq, Prezident İlham Əliyevin müdrik, praqmatik siyasəti nəticəsində Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf davam edib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, ardıcıl və sistemli tədbirlər görülüb.

Sorğu əcnəbi mütəxəssislər tərəfindən təşkil olunaraq keçirilib. Sualların qoyuluşundan görünür ki, onlar Azərbaycandakı mövcud vəziyyətdən, aparılan islahatlardan, müxtəlif sahələrdə icra olunan dövlət proqramlarından, əhalinin rifahına yönəlmiş tədbirlərdən xəbərdardırlar. Əlbəttə, sorğu tərtib olunarkən müasir dünya trendləri də nəzərə alınıb. Ola bilsin, nəticələr bəlkə də sosioloqlar üçün qeyri-adi görünə bilər. Amma Azərbaycan insanı, xüsusən günü xəbər içərisində keçən, ictimai rəyə başqalarına nisbətən daha yaxından bələd olan KİV işçisi, jurnalist üçün burada təəccüblü heç nə yoxdur. Cavablar həqiqətən reallığın güzgüdəki əksi təsirini bağışlayır. Prezidentin birillik fəaliyyətinə verilən qiymətin arxasında vədlə işin vəhdəti dayanır. Cəsarətlə deyə bilərik ki, dünyada Prezident İlham Əliyev kimi verdiyi vədləri həmişə, istənilən şəraitdə yerinə yetirmək xarizmasına malik liderlər azdır. Bu isə, xalqın, ölkənin taleyi baxımından müstəsna əhəmiyyət daşıyır.

### Güclü iqtisadi potensial və inqilabi islahatlar

Cənab İlham Əliyev 2003-cü ildə prezident seçilərkən Azərbaycan həlli müşkül görünən bir sıra problemlərlə üz-üzə idi. O vaxt ölkə hələ yeni-yeni dirçəlirdi, işsizlik, məcburi köçkünlərin acınacaqlı halı, bölgələrin inkişafdan geri qalması, əhalinin sosial vəziyyəti ciddi narahatlıq doğururdu.

Prezidentin ilk vədi bu oldu: ölkədə yüz minlərlə yeni iş yeri yaradılacaq. Ötən illər ərzində 2 milyona yaxın iş yeri yaradıldı. İşsizlik səviyyəsi 40 faizdən 5 faizə endi.

Prezident deyirdi: Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmayacaq. Çox keçmədən axırıncı çadır düşərgəsi ləğv olundu. 2007-ci ildə 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 min kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmənzilli binalardan ibarət komplekslər salınıb. İndiyədək 300 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Son bir ildə daha 6 minə yaxın ailə yeni mənzillərə köçürülüb. Bir neçə gün əvvəl - aprelin 5-də Bakının Kürdəxanı qəsəbəsində bu kateqoriyadan olan 810 ailə üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verildi. Bu, sayca 103-cü belə qəsəbədir. İlkin hesablamalara görə, 2019-cu ildə təqribən beş min köçkün ailəsi üçün yeni mənzillər tikiləcək.

Prezident 2018-ci il aprelin 18-də andiçmə mərasimindəki nitqində islahatların yeni mərhələsinin anonsunu verdi: “Növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaq”.

Bir il keçdi və fransız sosioloji tədqiqat şirkəti Azərbaycan respondentlərinə belə bir sual ünvanladı: Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son bir ildə apardığı islahatları necə qiymətləndirirsiniz? Sorğuda iştirak edən hər 100 nəfərdən 90,5-i sualı müsbət cavablandırıb. Bu qiymətləndirmə üçün yetərincə arqument var. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə iqtisadiyyat 3,2 dəfədən çox artıb, qeyri-neft sektorunun ixracında 4 dəfədən çox artım baş verib. Valyuta ehtiyatlarımız 24 dəfə artaraq 44 milyard dolları ötüb. Ölkəmizə 230 milyard dollardan çox sərmayə yatırılıb. Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyə görə 35-ci yerə layiq görüb. Biz inkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf göstəricisinə görə isə üçüncü yerə yüksəlmişik. Bu göstəricilər əldə edilmiş böyük uğur, tarixi nailiyyətdir. Sənaye və aqrar sahə modernləşdirilir, şəhər və rayonlarda sənaye zonaları, sənaye məhəllələri, sənaye parkları yaradılır, ölkəmizə ən müasir texnologiyalar gətirilir.

Ötən il Azərbaycanın üçüncü peyki orbitə buraxıldı. Həmçinin “Cənub qaz dəhlizi”nin rəsmi açılışı oldu. Bu dəhlizin tərkib hissəsi olan TANAP layihəsi artıq fəaliyyətdədir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlaması ilə Azərbaycan özünü dünyada tranzit ölkə kimi təsdiqlədi. Bütün bunlar, sözün əsl mənasında, tarixi hadisələrdir. Həmin layihələr bundan sonra onilliklər ərzində Azərbaycana həm siyasi, həm də iqtisadi və maliyyə dividendləri gətirəcək.

Sosial sahədə fəaliyyətə gəlincə, 2003-2018-ci illərdə maaşlar 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. 3100-dən çox məktəb, 640-dan çox xəstəxana binası tikilib və ya əsaslı təmir olunub. Bu il daha 100 məktəb binasının tikilməsi, 10-a yaxın rayon mərkəzi xəstəxanasının açılışı nəzərdə tutulur. Ölkə əhalisinin hər il pulsuz kütləvi tibbi müayinəsi aparılır və bu, Azərbaycan Prezidentinin dünyada bənzəri olmayan təşəbbüslərindən biridir.

### Üç milyon insanı əhatə edən sosial tədbirlər paketi

Ötən bir ildə Prezidentin apardığı sosial istiqamətli islahatlar inqilabi xarakter alıb. Bu dövrdə imzalanmış fərman və sərəncamların mühüm bir hissəsi əhalinin sosial müdafiəsinin əhəmiyyətli dərəcədə gücləndirilməsinə, sosial sahə üzrə şəffaf, çevik, optimal idarəçilik və xidmət mexanizmlərinin formalaşdırılmasına yönəlib. Təfərrüata varmadan yalnız onu qeyd etməklə kifayətlənirik ki, minimum pensiya məbləğinin, minimum əməkhaqqının 40 faiz artırılması müvafiq olaraq 233 min və 600 min nəfərin rifahına ciddi dəstəkdir. Yaxud şəhidlərin vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün mənzillər alınması, şəhid ailələri üçün Prezidentin aylıq təqaüdünün 300 manata çatdırılması, sosial müavinətlərin orta hesabla 100 faiz, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinətlərin 50 faiz artırılması və digər müvafiq qərarlar sosial sahədə inqilabi dəyişikliklərin davamlı xarakter aldığını göstərir. Ümumilikdə 3 milyona yaxın insanı əhatə edən bu sosial paket Prezidentin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığına bariz nümunədir.

Təbii ki, ildən-ilə daha geniş miqyas alan, milyonların rifahına xidmət edən sosial islahatların əsasında ölkənin iqtisadi qüdrəti, dinamik inkişafı dayanır. Bu işləri görmək üçün iqtisadi güc olmalıdır. Yuxarıda bəzi xarakterik faktları xatırlatdıq. Deyilənlərə daha nəyi əlavə etmək olar? 2019-cu ilin iki ayında ölkə üzrə ümumi daxili məhsul 3 faiz artıb ki, bu da son illərin ən yüksək göstəricisidir. Azərbaycan sənayenin qeyri-neft sektorunda 15,5 faiz artımla dünya rekorduna imza atıb. Asiya İnkişaf Bankının proqnozlarına görə, 2019-cu ildə Azərbaycan iqtisadiyyatı 2,5 faiz, 2020-ci ildə 2,7 faiz artacaq. İqtisadiyyatımızın rekord templərlə artması, müsbət proqnozlar vətəndaşlarımızın gələcəyə daha nikbin nəzərlərlə baxmasına əsas verməklə yanaşı, sözsüz ki, Prezidentin reytinqinə də birbaşa təsir göstərir.

Dara, çətinliyə düşən insanlar hər zaman yanlarında dövləti, Prezidenti görürlər. Bu yaxında baş vermiş hadisələri götürək. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında zəlzələ zamanı zərərçəkənlərin köməyinə birinci olaraq Prezident yetişdi. İnsanlar hiss etdilər ki, bu təbii fəlakət qarşısında tək deyillər. Hazırda zərərçəkənlər üçün yeni evlər tikilir, sakinlərin bəziləri artıq yeni mənzilə köçüb. “Diqlas” ticarət mərkəzində yanğın nəticəsində zərərə düşmüş sahibkarlara da birinci olaraq məhz dövlət başçısı yardım əlini uzatdı. Onun tapşırığına əsasən yanmış malın müqabilində yardım ödənilir, sahibkarlara öz biznesini qurmaq üçün başqa yerlər təklif edilir.

Vaxtilə banklardan kredit götürən on minlərlə vətəndaş devalvasiya nəticəsində ciddi çətinliyə düşmüşdü. Problemli kreditlərlə bağlı məsələ Prezident İlham Əliyevin 2019-cu il 28 fevral tarixli Fərmanı ilə birdəfəlik həllini tapdı. 800 mindən çox insanın narahatlığına bir gündə son qoyuldu. Prezidentin vurğuladığı kimi, bu fərmanın dünyada analoqu yoxdur: “Dövlət bir daha göstərdi ki, vətəndaşının yanındadır. Ciddi devalvasiyadan əziyyət çəkən ölkələrin sayı kifayət qədər çoxdur və bizdən də dərin devalvasiyaya uğramış ölkələr vardır. Ancaq heç bir ölkədə bu dərəcədə sosialyönümlü və vətəndaşın marağını güdən addım olmamışdır”. İllərdən bəri yığılıb qalmış daha bir problem dövlət başçısının fevralın 19-da imzaladığı “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” Fərmanla həllini tapdı. Bu sənəddən istismarına icazə verilməmiş yaşayış binalarında mənzil alan 340-400 minədək insan faydalanacaq.

### Dörd dövlət proqramı və Azərbaycanın simasını dəyişən 16 il

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 16 ildə paytaxt Bakı ilə yanaşı, bölgələrimizin siması da tanınmaz dərəcədə dəyişib. Bu dövrdə regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı uğurla icra olunub, dördüncü proqram qəbul edilib. Prezidentin bölgələrə ənənəvi səfərləri daha da intensivləşib: son bir ildə 28 səfər. Bunlar adi səfərlər deyil və mühüm infrastruktur obyektlərinin, yeni sənaye müəssisələrinin, aqrar istehsalat komplekslərinin açılışı ilə müşayiət olunur. Məsələn, son səfərlər zamanı Şamaxı rayonunda yeni salınan Dəmirçi-Lahıc avtomobil yolunun açılışı olub, İsmayıllı rayonunun Lahıc qəsəbəsinə təbii qaz verilib. Prezident “AZZA AGRO” MMC-nin 1000 başlıq müasir heyvandarlıq kompleksinin, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun, Masallı Sənaye Məhəlləsinin, Xızı rayonunda “Yeni Yaşma” Külək Elektrik Parkının, Quba Rayon Mərkəzi Xəstəxanasının, Qubada “ABAD Factory” İstehsalat Kompleksinin, Lənkəran Olimpiya İdman Kompleksinin, İmişli və Şəkidə “ASAN Həyat” komplekslərinin, Ağdam Muğam Mərkəzinin, Qarabağ Atçılıq Kompleksinin, Sumqayıt Kimya Sənaye Parkında üç müasir zavodun və digər obyektlərin açılışlarını edib.

Şəhərlər və kəndlər sakinlərin gözləri qarşısında abadlaşır, müasir görkəm alır. Qazlaşdırma səviyyəsi artıq 95 faizə çatıb (Prezidentin seçkiqabağı vədlərindən biri də bu idi), 38 şəhərin içməli su problemi həllini tapıb və hazırda 12 şəhərdə bu istiqamətdə iş gedir. Ötən il 2 min kilometr avtomobil yolu salınıb. 2004-cü ildən indiyədək salınan yolların uzunluğu 15 min kilometrə çatır. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, yol infrastrukturunun keyfiyyəti baxımından Azərbaycan dünyada 34-cü yerdədir və inkişaf etmiş bir çox ölkələri qabaqlayır. Son bir ildə isə 920-dən çox kəndin yol infrastrukturu yaxşılaşdırılıb, ümumilikdə 2,2 milyon insanın yol problemi həllini tapıb.

“Opinion Way” şirkətinin sorğusunda qoyulan “İlham Əliyevin qəbul etdiyi regionların sosial-iqtisadi inkişafı proqramı və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində, sizcə, regionlar inkişaf edibmi” sualına respondentlərin 93 faizindən çoxunun müsbət cavab verməsi bu inkişaf fonunda tam təbii görünür: bölgə insanı həyatın yaxşılığa doğru dəyişdiyini hər addımda hiss edir və bunu qiymətləndirir.

Prezident regionlara hər bir səfəri zamanı mövcud problemlərlə şəxsən maraqlanır, ictimaiyyət nümayəndələri və sadə insanlarla birbaşa ünsiyyətdə olur, onları düşündürən məsələlərin həllinə dair yerindəcə tapşırıqlar verir. Bu səfərlərin və əhali ilə görüşlərin nəticəsi olaraq regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına yönələn çoxsaylı sərəncamlar imzalanıb, yeni infrastruktur layihələrinin icrasına, şəhər və kəndlərin abadlaşdırılmasına külli miqdarda vəsait yönəldilib. Göründüyü kimi, regionlara səfərlərin faydalılıq əmsalı yetərincə yüksəkdir və sorğu iştirakçılarının 90,4 faizi bununla bağlı sualı müsbət cavablandırıb.

### Milli maraqları təmin edən məqsədyönlü xarici siyasət kursu

Azərbaycanın iqtisadi qüdrətinin artması onun xarici güclərdən asılılığının aradan qaldırılmasını təmin edib. Bu gün Azərbaycan tam müstəqil xarici siyasət aparır, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. Prezident İlham Əliyev bu imkandan istifadə edərək milli maraqları qətiyyətlə qoruyur. Dövlət başçısının müdrik siyasəti Azərbaycanı dünyada söz və nüfuz sahibinə çevirib.

Son bir il xarici siyasət sahəsində də bir çox uğurlarla yadda qalıb. Prezident İlham Əliyev xarici ölkələrə 17 səfər edib, Azərbaycana 13 dövlət və hökumət başçısı, o cümlədən Serbiya, Türkiyə, İtaliya, Gürcüstan prezidentləri, Almaniyanın Federal Kansleri və başqaları səfər edib. Prezidentimizin xarici səfərlərini əhəmiyyətinə görə sıralasaq, ilk növbədə, Türkiyə, Rusiya, İran, Qazaxıstan, Böyük Britaniya, Fransa, Belçika və İsveçrəyə səfərləri qeyd edə bilərik. Bu səfərlərin hər biri faydalılığı, məhsuldarlığı ilə diqqət çəkir, Azərbaycana və onun liderinin siyasətinə dünyanın artan marağından xəbər verir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu il yanvarın 22-də - bir gündə Prezident İlham Əliyevin Davosda aparıcı şirkətlərin və beynəlxalq maliyyə qurumlarının rəhbərləri, yüksək vəzifəli dövlət rəsmiləri ilə beş görüşü olub. Özü də bu görüş və danışıqların hamısı qarşı tərəfin təşəbbüsü ilə baş tutub.

Ötən il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq haqqında mühüm sənəd imzalanıb, Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində böyük konfrans keçirilib. Bu il isə Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu mötəbər təşkilata sədrlik edəcək. Xatırlatmaq yerinə düşər ki, Qoşulmama Hərəkatı BMT-dən sonra dünyanın ikinci böyük təşkilatıdır.

2018-ci ildə Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya imzalandı. Həmin sənəddə Azərbaycanın uzun illər ərzində müdafiə etdiyi mövqeyin tam əksini tapması diplomatiya tariximizə növbəti uğur səhifəsi kimi yazıldı.

Uğurlar çoxdur, onların hamısı bir yazıya sığmaz. Rəy sorğusunun Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələri (respondentlərin 89,9 faizi bu sualı müsbət cavablandırıb) məhz bu uğurlardan qaynaqlanır. Ekspertlərin fikrincə, Azərbaycan Prezidentinin xarici siyasət kursu dinamikliyi, intensivliyi, məqsədyönlülüyü ilə fərqlənir, bir qayda olaraq milli maraqlara söykənir. Bu siyasətin nəticəsidir ki, Azərbaycan mühüm qlobal və regional problemlərin müzakirə olunduğu məkana, beynəlxalq dialoq mərkəzinə çevrilib. Prezident İlham Əliyev bir çox mühüm əməkdaşlıq formatlarının təşəbbüskarı kimi tanınır. Ölkəmizin bərabərhüquqlu və qarşılıqlı maraqlar prinsipinə əsaslanan xarici siyasət strategiyası uğurlu model kimi səciyyələndirilir və nəticə etibarilə onun etibarlı tərəfdaş imicini möhkəmləndirir.

Şübhəsiz ki, Prezident İlham Əliyevin yüksək reytinqinin, xalqın öz liderinə etimadının əsas qaynaqlarından biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu qətiyyətli mövqeyi, ordu quruculuğuna ayırdığı müstəsna diqqətdir. Ötən il iki dəfə keçirilən hərbi parad Azərbaycan Ordusunun potensialını (onun bir hissəsini) dünyaya nümayiş etdirdi. Bunu dostlarımız da, düşmənlərimiz də gördü. Müasir hərb tariximizə şanlı səhifə kimi yazılmış Aprel döyüşləri, ordumuzun uğurlu Lələtəpə və Naxçıvan əməliyyatları bir daha təsdiqlədi ki, Azərbaycan xalqı və dövləti ərazilərimizin işğalı ilə heç vaxt barışmayacaq, ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək. Son vaxtlar danışıqlar prosesinin yeni mərhələsinin başlanması, Ermənistan rəhbərliyinin danışıqlar prosesinə qondarma Dağlıq Qarabağ rejimini də cəlb etmək cəhdinin iflasa uğraması Prezident İlham Əliyevin müdrik xarici siyasətinin nəticəsi, diplomatiyamızın daha bir uğurudur.

Prezident İlham Əliyevin növbəti müddətə dövlət başçısı seçilməsinin birinci ildönümü Azərbaycan əhalisinin sayının 10 milyon nəfərə çatması ilə üst-üstə düşdü. Xalqımızın və dostlarımızın böyük sevincinə səbəb olan bu əlamətdar hadisənin həm rəmzi, həm də real mənası var: Ermənistanın hərbi təcavüzü ilə üzləşən, bir milyondan çox sakini qaçqın və məcburi köçkün olan, müharibə vəziyyətində yaşayan Azərbaycan bütün çətinliklərə rəğmən hər bir sahədə dinamik inkişaf edir, öz lideri ətrafında sıx birləşərək gələcəyə doğru inamla irəliləyir.

### Prezident İlham Əliyevin lider portretini tamamlayan bir neçə ştrix

*Prezident İlham Əliyev verdiyi vədləri qətiyyətlə, istənilən şəraitdə yerinə yetirir. Dövlət başçısının Azərbaycana rəhbərlik etdiyi 16 il ərzində həmişə belə olub və tam əminliklə deyə bilərik ki, gələcəkdə də belə olacaq. Prezidentin verdiyi hər bir sözə görə yüksək məsuliyyətini sonuncu prezident seçkilərindən sonra keçən bir il ərzində də aşkar görmək olar. Dövlət başçısı seçkilərdən dərhal sonra iqtisadi və sosial islahatlar sahəsində ciddi tədbirlər paketi qəbul ediləcəyini bildirdi və bu dəfə də öz vədini yerinə yetirdi.*

*Azərbaycanda bütün islahatların və dəyişikliklərin əsas təşəbbüskarı Prezident İlham Əliyevin özüdür. Məhz onun təşəbbüsü ilə məhkəmə-hüquq sistemində dərin islahatlar aparılıb. Prezidentin bu sahədə sonuncu fərmanı - ədalət mühakiməsi sistemində islahatların yeni mərhələsinə start vermiş sənəd ekspertlər tərəfindən inqilabi fərman adlandırılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış “ASAN xidmət” modeli bütün dünyanın diqqətini cəlb edib.*

*Dövlət başçısı ağrılı nöqtələri, təxirəsalınmaz tədbirlər və addımlar tələb edən problemli məqamları zərgər dəqiqliyi ilə müəyyən edir və həmişə hadisələri qabaqlayır. Bu isə Prezidentin bəsirət istedadına və irəlini görmək bacarığına dəlalət edir. Bu fitri qabiliyyət və milli maraqların prioritetlərini dəqiq müəyyən etmək istedadı Azərbaycan üçün, son nəticədə region və bütün dünya üçün bir sıra strateji əhəmiyyətli layihələrin reallaşdırılmasına şərait yaradıb. Bu sıraya “Cənub qaz dəhlizi”, Bakı-Tbilisi-Qars dəmir yolu, “Şimal-Cənub nəqliyyat dəhlizi” layihələrini aid etmək olar. Zənnimcə, heç kəs inkar edə bilməz ki, bu transmilli layihələrin gerçəkləşməsi İlham Əliyevin iradəsi, onun nəzərdə tutulmuş hədəfə doğru getmək və məqsədə çatmaq, risk etmək, məsuliyyəti öz üzərinə götürmək cəsarəti sayəsində mümkün olub. Bir sözlə, Azərbaycan Prezidenti öz ideyalarını gerçəkləşdirməyi bacaran az sayda siyasətçilərdən biridir.*

*Daha bir mühüm məqam: Prezidentin bütün addımlarında, gördüyü işlərdə daxili məntiq dəqiq izlənilir, o, haraya və nə məqsədlə getdiyini dəqiq bilir. Bu, ötən 16 ildə reallaşdırılan ardıcıl siyasəti nəzərdən keçirəndə açıq-aydın görünür.*

*Prezident İlham Əliyev və onun xanımı hakimiyyətin “insani sima”sını təcəssüm etdirirlər. Dövlət başçısı vətəndaşların kədərinə də, sevincinə də şərikdir, onların yanındadır. Biz bunun dəfələrlə şahidi olmuşuq: çətinliyə düşən insanlar hər zaman yanlarında dövləti, Prezidenti görürlər. Bu yaxında baş vermiş hadisələri götürək. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında zəlzələ zamanı zərərçəkənlərin köməyinə birinci olaraq Prezident yetişdi. “Diqlas” ticarət mərkəzində yanğın nəticəsində zərərə düşmüş sahibkarlara da birinci olaraq məhz dövlət başçısı yardım əlini uzatdı...*

*Prezident İlham Əliyevə ümumxalq məhəbbətinin, ona bəslənilən böyük inam və etimadın əsasında bu və digər amillər dayanır. Rəy sorğularının nəticələri, sadəcə, bu inam və etimadın inikası, daha bir əyani təsdiqidir.*

***Aslan ASLANOV,***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti***

## CNN Türk TV: “Azərbaycan Prezidenti səmərəli islahatlar sayəsində xalqın dəstəyini qazanıb”







Prezident İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin bir ili ilə bağlı Türkiyənin nüfuzlu CNN Türk TV kanalında geniş reportaj yayımlanıb.

AZƏRTAC xəbər verir ki, reportaj Azərbaycan xalqı ilə Prezident arasındakı birliyi tərənnüm edən fikirlərlə başlayır. Sonra Fransanın nüfuzlu və peşəkar tədqiqat mərkəzlərindən biri olan “Opinion Way” şirkətinin Azərbaycan Prezidentinin son 1 il ərzindəki fəaliyyəti ilə bağlı keçirdiyi rəy sorğusunun nəticələri barədə məlumat verilir. Bildirilir ki, Prezident İlham Əliyevin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair suala respondentlərin bütövlükdə 75,6 faizi müsbət cavab verib.

Videomaterialda türkdilli tamaşaçıların diqqətinə çatdırılıb ki, 2003-cü ildə Azərbaycan xalqının dəstəyini qazanan Prezident İlham Əliyev ölkə iqtisadiyyatının üç dəfə artmasına nail olub. Ötən dövrdə *Azərbaycanda 12 min 300 kilometr avtomobil yolu salınıb, ölkə iqtisadiyyatına 231 milyard ABŞ dolları sərmayə yatırılıb, valyuta ehtiyatı 23 dəfə artıb, 2 milyon iş yeri açılıb.*

*Reportajda Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan uğurlu siyasət, o cümlədən TANAP kəmərinin əhəmiyyətinə dair məlumatlar da əksini tapıb.* Həmçinin Azərbaycanın ayrı-ayrı bölgələrini, paytaxt Bakının müasir görkəmini, eləcə də Prezident İlham Əliyevin ictimaiyyət nümayəndələri ilə görüşlərini, eyni zamanda, beynəlxalq tədbirlərdə iştirakını əks etdirən kadrlardan istifadə olunub.

## Dmitri SAVELYEV: “Xalq öz vədini şərəflə yerinə yetirən İlham Əliyevə inanır”

42 yaşında ölkə Prezidenti olmaq, xüsusən hakimiyyət sükanını respublikanı uçurumdan xilas etmiş milli lider Heydər Əliyevdən qəbul etmək böyük məsuliyyətdir.

Bunu AZƏRTAC-ın müxbiri ilə söhbətində Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Dmitri Savelyev deyib.

Deputat əlavə edib: “İlham Əliyev atasının siyasətini davam etdirərək və Azərbaycanı müstəqil iqtisadiyyatı olan müasir dövlətə çevirərək bu imtahandan alnıaçıq çıxa bildi. Ölkə son 15 ildə planeti özünün inkişaf tempi ilə heyrətləndirərək bir-birinin ardınca dünya rekordlarına imza atır: burada işsizlik və yoxsulluq beynəlxalq miqyasda ən aşağı səviyyədədir. Dünya Davos İqtisadi Forumunun son Qlobal rəqabətqabiliyyətlilik hesabatında Azərbaycan 35-ci yeri tutur”.

D.Savelyev vurğulayıb ki, Azərbaycan energetika sahəsində bir sıra transmilli layihələr həyata keçirib, iqtisadiyyatın neft sektorunda gücünü artırır və öz nəqliyyat infrastrukturunu fəal şəkildə inkişaf etdirir.

Deputat qeyd edib: “Bütün dünya ictimaiyyəti Azərbaycanı regional, beynəlxalq və qlobal əməkdaşlığa hazır olan ciddi tərəfdaş kimi görür. Onun xarici siyasəti öz milli maraqları ilə digər ölkələrin mənafeləri arasında düşünülmüş balansa əsaslanır. Respublikada mədəniyyətlərarası və dinlərarası dialoq həmişə güclü olub. Bu gün isə Azərbaycan multikulturalizm dəyərlərini bütün planetdə yayır. Azərbaycan müsəlman aləmində də güclü mövqeyə malikdir, eyni zamanda Avropa strukturları ilə də fəal qarşılıqlı fəaliyyət göstərir”.

D.Savelyev əlavə edib: “Rusiya ilə münasibətlər Azərbaycanın ən yeni tarixinin ayrıca parlaq səhifəsidir, axı İlham Əliyev Rusiya-Azərbaycan strateji tərəfdaşlığının ardıcıl inkişafı istiqamətində səylər göstərir. Onun Prezident Putinlə etimada söykənən münasibətləri qarşılıqlı anlaşmaya kömək edir, birgə iqtisadi layihələrin və möhkəm humanitar əlaqələrin təməlini təşkil edir”.

O vurğulayıb ki, dövlət başçısı vəzifəsinin icrasına başladığı ilk vaxtlarda İlham Əliyev milliyyətindən, dini mənsubiyyətindən və siyasi mövqeyindən asılı olmayaraq “bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidenti” olmağı vəd edib. D.Savelyev deyib: “Və xalq ona inanır, çünki İlham Əliyev artıq dördüncü müddətdir ki, doğma ölkəsinin naminə qüsursuz prezidentlik fəaliyyətində öz vədini şərəflə yerinə yetirir”.

◆ Müəllifi İlham Əliyevdir

# Azərbaycan dünyaya həm də kosmosdan baxır

## Qafqazın ilk peyk operatoruna sahib olan ölkəmiz 6 ildə kosmosa 3 peyk göndərib











*Əvvəli 1-ci səh.*

### Meteoritin 4 yerə böldüyü qaya parçası

Müəllifi əməkdar memar Nəriman İmaməliyev olan Əsas Yerüstü Peyk İdarəetmə Kompleksinin tikintisi layihəsinə 2011-ci ildə start verilib və mürəkkəb konstruktiv həllinə baxmayaraq, qısa vaxt ərzində tikintisi başa çatdırılıb. Kompleks bir çox cəhətlərinə görə ölkəmizin memarlıq tarixinə düşəcək nadir layihələrdəndir.

Bu bina dekonstruktivizm üslubunda həll olunmuş binadır. Layihənin ideyası səma cisminin Yer səthinə enərək yerdə olan qaya parçası ilə toqquşması və toqquşma nəticəsində qaya parçasının dörd yerə ayrılmasını simvolizə edir. Memar obrazı daha canlı və dinamik etmək üçün material, forma və rəng seçimlərinə xüsusi diqqətlə yanaşıb. Belə ki, binanın əsas üzlük materialı olan mərmərin iki fərqli növündən istifadə olunub, mərmər üzlükdə üfüqi xətlərlə daha canlı səth yaradılıb və rəng seçiminə görə ətraf mühitin landşaft quruluşuna tam şəkildə uyğunlaşdırılıb.

### "Kosmos və onun ram edilməsi"

Layihənin kompozisiya həlli futurizm və suprematizm üslublarına yaxındır. Hər iki üslubda əsas süjet xətti "kosmos və onun ram edilməsi"dir ki, bu da təyinatına görə Azərbaycanda ilk dəfə istifadə olunan memarlıq üslublarıdır. Binanın interyeri də bu üslubda layihələndirilib.

Mərkəzdə fasiləsiz olaraq iş rejimi mövcuddur və kompleksin ərazisi 24 saat 7 gün rejimində mühafizə olunur. Sahənin perimetri boyunca, eləcə də binadaxili ofis sahələrində müşahidə kameraları quraşdırılıb.

Ərazidə yerləşən texniki binada peykə siqnalı ötürmək və qəbul etmək məqsədilə quraşdırılmış xüsusi çanaq antenaları, eləcə də müvafiq texniki avadanlıqlar var. Bundan əlavə, burada kompleksi fasiləsiz elektrik enerjisi, istilik və havalandırma, su ilə təmin etmək üçün lazımi infrastruktur təmin edilib.

### Dünyanın 1/3 hissəsini əhatə edən telekommunikasiya peyki

Artıq iş saatı başlayıb. Hər kəs öz otağında işinin başındadır. Üçmərtəbəli binada Fəza, Lütfi Zadə, Tusi, Peyk əməliyyatları, iclas, istirahət və əyləncə otaqları, kitabxana, yeməkxana mövcuddur. Bayıra açılan qapılardan biri "kəhkəşan yolu" adlandırılıb.

"Azərkosmos"un sədr müavini Dunay Bədirxanov deyir ki, bu gün Azərbaycan dünyada 3 peykə sahib olan azsaylı ölkələrdəndir. "Azərkosmos"un idarəçiliyində olan ilk milli peykimiz - "Azerspace-1" telekommunikasiya peyki 8 fevral 2013-cü il tarixində Fransız Qvianasında yerləşən Kuru kosmodromundan "Ariane-5" daşıyıcı raketi vasitəsilə 46° şərq uzunluğu orbital mövqeyinə çıxarılıb. "Azerspace-1" peyki bu gün Azərbaycan üzərində ən güclü siqnala malik peyklərdəndir.

### Gün ərzində 6 milyon km² ərazinin şəklini çəkə bilən "Azersky"

2014-cü ilin dekabr ayında isə Fransanın "Airbus DS" şirkəti və "Azərkosmos" arasında imzalanmış strateji əməkdaşlıq sazişi çərçivəsində Azərbaycanın sayca ikinci, təyinatına görə Yer səthinin məsafədən müşahidəsi peyki olan "Azersky" "Azərkosmos" tərəfindən təhvil alınıb. Bununla da "Azərkosmos" Yer səthinin məsafədən müşahidəsi üzrə kommersiya fəaliyyətinə başlayıb.

"Azersky" peyki bir gün ərzində 6 milyon km² ərazinin şəklini çəkə bilir. Bu o deməkdir ki, Yer kürəsinin hər bir nöqtəsi hər gün "Azersky" peyki tərəfindən yüksək ayırdetmədə müşahidə oluna bilər. Peykin termal izolyasiyası onun minimum 12 il tam işləməsinə təminat verir.

Bu gün ölkəmizin "Azersky" peyki sayəsində dünyanın istənilən nöqtəsinin yüksək ayırdetməli peyk təsvirlərinə birbaşa, qeyd-şərtsiz çıxış imkanı var.

Ötən il sentyabrın 26-da isə Kuru kosmodromundan uğurla orbitə buraxılan "Azerspace-2" peyki də artıq kommersiya fəaliyyətinə başlayıb. Peyk müasir elektrik mühərrikləri ilə təchiz olunub.

"Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edir. Yeni peyk "Azərkosmos"un xidmət spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, birinci telekommunikasiya peyki - "Azerspace-1" peykinin orbitdəki ehtiyatıdır. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edir.

Ümumilikdə dəyəri 190 milyon dollar olan "Azerspace-2" peykinin ölkə iqtisadiyyatına 400 milyon dollar gəlir gətirəcəyi proqnozlaşdırılır.

### 100-ə yaxın televiziya və radio kanalı

Burada ən maraqlı qruplardan biri də Faydalı Yük və Şəbəkə Əməliyyatları qrupudur. Qrupun aparıcı müştəri mühəndisi Günay Feyziyeva ilə söhbət zamanı bəlli olur ki, hazırda "Azerspace-1" peyki üzərindən 100-ə yaxın televiziya və radio kanalı yayımlanır.

Müştərilərə göstərilən peyk xidmətləri içərisində televiziya və radio yayımı, müxtəlif məntəqələrə videoməzmunun çatdırılması, korporativ şəbəkə, internet, videokonfrans, uzaq məsafədən idarəetmə, uzaq məsafədən rabitənin qurulması, canlı videobağlantı və s. xidmətlər var. Burada həmçinin canlı yayım xidməti də təklif edilir. Bunlar əsasən idman və müxtəlif oyunlar, xəbərlər, dövlət tədbirləri çəkilişlərinin yayımlarıdır.

Peyk xidmətlərimizdən əsasən MDB regionu, Avropa, Afrika, Orta və Yaxın Şərq və Asiya regionlarında istifadə olunur. Müştərilərə 4 dildə (Azərbaycan, rus, ingilis və türk) 24/7 rejimdə fasiləsiz xidmət göstərilir.

Digər maraqlı qrup isə Peyk və yerüstü sistemlər departamentinin peyk əməliyyatları qrupudur. Qrupun böyük peyk mühəndisi Fariz Əliyev 7 ildir burada çalışır. Onun sözlərinə görə, peyk əməliyyatlarının əsas məqsədi peykin ona ayrılmış 46 dərəcə şərq uzunluğunda qalmasını təmin etmək, peykin sazlığı və faydalı yükünün müştərilərin istəyinə uyğun olaraq konfiqurasiya olunmasıdır.

Mövsümə uyğun olaraq peykin durumu yoxlanılır. Məsələn, yaz və payız mövsümündə peyk üçün günəş tutulmaları olur, yəni Yer peyklə günəşin arasına daxil olur. Bu zaman elektrik üçün peyk günəşdən enerji ala bilmədiyindən daxili batareyalardan istifadə edilir. Həmin müddətdə peykə xüsusi nəzarət edilməlidir.

### Bütün peyklər yerli mütəxəssislər tərəfindən idarə olunur

Yarandığı gündən "Azərkosmos"da yüksəkixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilib. Texniki heyət mərhələli şəkildə ABŞ, Malayziya, Çin, Almaniya, Hindistan və s. ölkələrdə müxtəlif kurs və təlimlərdə iştirak edib. Əsas məqsəd milli peyklərin idarə və istismar edilməsinin azərbaycanlı mütəxəssislər tərəfindən həyata keçirilməsini təmin etməkdir.

Hazırda qurumun işçilərinin hamısı yerli kadrlardan ibarətdir. Fariz Əliyev qeyd edir ki, artıq bütün peyklər ölkə ərazisindən tamamilə azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur. Onların əksəriyyəti gənclərdən ibarətdir. Ümumiyyətlə, peyk layihələri yüksək texnologiyaların ölkəyə transferi, eləcə də kosmik proqramların idarə edilməsi, kosmik layihələrin müstəqil həyata keçirilməsi üzrə peşəkar bilik, bacarıq və vərdişlərin mənimsənilməsinə xidmət edir.

"Azərkosmos"un Yerüstü sistemlərə xidmət qrupunun rəhbəri Emil Abbasov deyir ki, burada qrupun işi peykə göndərilən komandaların davamlılığını təmin etmək, antenaların peykləri izləməsinə və avadanlıqların sazlığına nəzarətdir. Çanaq antenalarının istənilən hava şəraitinə davamlılığı da təmin olunub. Qar, çovğun, leysan belə işə mane ola bilməz.

### 6 ildə 3 peyk

Beləcə, "Azərkosmos"da çalışan mütəxəssislərin bir iş gününü izlədik. Burada çox maraqlı proseslər baş verir...

Onu da əlavə edək ki, bütün proseslərin bir-birinə zəncirvarı bağlılığı var. Ona görə də bütün işlər "zərgər dəqiqliyi" prinsipi ilə həyata keçirilir. Qürurverici məqamlardan biri də odur ki, yerli kadrlardan ibarət mütəxəssislərin əməyi sayəsində "Azərkosmos" Azərbaycana böyük iqtisadi-siyasi dividendlər qazandırır.

Ötən il "Azerspace-2"nin orbitə göndərilməsi münasibətilə xalqı təbrik edən Prezident İlham Əliyev bunu xalqın, dövlətin növbəti qələbəsi adlandırmışdı: "Azerspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək".

Son 6 il ərzində orbitə 3 peyk çıxaran Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və bayrağımız ən yüksək zirvələri fəth edir.

*Bir sözlə, "Azərkosmos" beynəlxalq kosmik layihələr çərçivəsində xarici dövlətlərin kosmik agentlikləri ilə kosmosdan dinc məqsədlərlə istifadə üzrə qarşılıqlı fayda gətirən əməkdaşlıq qurur ki, bu da, öz növbəsində, müstəqil Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısında intellektual nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir.*

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan beynəlxalq təşkilatlarda uğurla təmsil olunur

## QDİƏT Parlament Məclisinin İstanbulda keçirilən son tədbirləri bunu təsdiq edir

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Məclisinin 53-cü sessiyası iyun ayında Bakıda keçiriləcək. QDİƏT-in aprelin əvvəlində İstanbulda keçirilən daimi komitəsinin toplantısı da məhz Bakı sessiyasına hazırlıq məsələlərinə həsr olunmuşdu. Toplantıda Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini, QDİƏT Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyev də iştirak edib.



### QDİƏT Parlament Məclisinin 53-cü sessiyası Bakıda keçiriləcək

Bu barədə qəzetimizə açıqlama verən Eldar Quliyev dedi ki, ötən ilin noyabrında Yerevanda keçirilən 52-ci sessiyada QDİƏT Parlament Məclisinə sədrlik Azərbaycana keçdi. Təşkilata sədrlik əlifba sırası əsasında, rotasiya qaydasına uyğun olaraq 6 ay müddətində həyata keçirilir. Qaydaya görə, Məclisə sədrliyi ölkənin parlamentinin rəhbəri həyata keçirir. Ona görə ötən ilin noyabr ayından QDİƏT Parlament Məclisinin sədri Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovdur.

Eldar Quliyevin sözlərinə görə, aprelin 2-də İstanbulda keçirilən daimi komitənin iclasında qarşıdan gələn sessiyaya hazırlıq və digər təşkilati məsələlər müzakirə olundu. Toplantıda 12 üzv dövlətdən 9-nun nümayəndəsi iştirak edirdi. Ermənistan, Rumıniya və Moldova nümayəndələri toplantıda iştirak etmədilər. Buna baxmayaraq, yetərsay var idi. Qəbul edilən qərarlar isə Bakıda təsdiq olunacaq.

Bundan başqa, həmin gün İstanbulda QDİƏT Parlament Məclisi ilə Baltik Dənizi Ölkələri Parlament Assambleyasının birgə daimi komitə iclası da keçirilib. Bu barədə məlumat verən Eldar Quliyev bildirdi ki, iclas okeanların, dənizlərin, çayların ekologiyasının qorunması, çirklənməsinin qarşısının alınması məsələlərinə, bununla bağlı hökumətlər səviyyəsində görülən işlərə həsr edilmişdi. Mövzu ətrafında çıxış edən Eldar Quliyev Xəzər dənizində olan ekoloji vəziyyət haqqında məlumat verib. Qeyd olunub ki, Xəzərin çirklənməsi əsasən Volqa çayının hesabına baş verir. İl ərzində Volqadan 75 milyon ton çirkli su Xəzərə axır. Xəzər dənizinin ölkəmizə aid hissəsində Azərbaycanın ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün atdığı addımlar haqqında söhbət açan Eldar Quliyev görülən işlərin davamlı olduğunu deyib. O da diqqətə çatdırılıb ki, Xəzərin çirklənməsi balıq növlərinin də azalmasına səbəb olur. Buna görə Xəzər dənizinin ekologiyasının qorunması üçün sahilyanı dövlətlərin hamısı səy göstərməlidir.

Yekunda ekologiyanın qorunması ilə bağlı səylərini artırmaları üçün QDİƏT Parlament Məclisi və Baltik Dənizi Ölkələri Parlament Assambleyası adından üzv dövlətlərin hökumətlərinə müraciət göndərilməsi qərara alınıb.

### Qlobal ərzaq təhlükəsizliyinə böyük elmi töhfə

Azərbaycan alimlərinin dünyanı düşündürən qlobal problemlər ətrafında apardıqları araşdırmaları dünyanın aparıcı elm ocaqları tərəfindən də maraqla izlənilməkdədir. Bu baxımdan Eldar Quliyevin həm də bir alim olaraq apardığı elmi araşdırmalar nəticəsində yazdığı "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" kitabı Avropada böyük maraqla qarşılanır. 2017-ci ildə bu kitab Avropa Təbiət Elmləri Akademiyasının qərarı ilə Almaniyada nəfis tərtibatla nəşr edilib. Kitabda qoyulan məsələlər çox çəkmədən BMT-nin diqqətini cəlb edib. Ona görə dünyanın ən böyük kitabxanalarından olan BMT-nin Cenevrədəki kitabxanasının ekspertlər şurası tərəfindən kitabın bu kitabxanaya qəbul olunması barədə qərar qəbul olunur.

Kitabın təqdimatı 2017-ci ilin noyabrında İtaliyada keçirilib. Təqdimatda Avropa Təbiət Elmləri Akademiyasının prezidenti akademik V.Q.Timinski, BMT-nin İctimai Mükafatlar üzrə Şurasının İsveçrədəki nümayəndəsi Mehmet Şükrü Gözəl, Vatikan Bonifasiana Akademiyasının prezidenti Sante de Ancelis, tanınmış alim Məsud Əfəndiyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Romadakı filialının rəhbəri Sandro Teti çıxış edərək professor Eldar Quliyevin elmi fəaliyyəti və təqdim olunan kitabın əhəmiyyəti haqqında danışıblar. Tədbirdə BMT-nin İctimai Mükafatlar üzrə Şurasının nümayəndəsi Mehmet Şükrü Gözəl "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" kitabının BMT-nin İctimai Mükafatlar üzrə Şurası tərəfindən "İlin kitabı" adına layiq görüldüyünü elan edib. O, Eldar Quliyevə "İlin kitabı" beynəlxalq mükafatını təqdim edib.

Ötən ilin iyun ayında Bakıda keçirilən "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransda kitabın ölkəmizdə Azərbaycan dilində təqdimatı baş tutub. Konfransda çıxış edənlər kitabın beynəlxalq səviyyədə maraqla qarşılandığını, azərbaycanlı alimin araşdırmalarının ərzaq təhlükəsizliyi probleminin aradan qaldırılmasına böyük elmi töhfə olduğunu vurğulayıblar. Bütün bunlar nəzərə alınaraq Eldar Quliyev kitaba və beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətlərinə görə BMT-nin İctimai Mükafatlar üzrə Şurasının Beynəlxalq Mükafatlar Komitəsinin "Xoşməramlı elm və sülh səfiri" fəxri adına layiq görülüb.

### "İlin alimi"

Bu günlərdə isə Berlində professor Eldar Quliyev "İlin alimi" beynəlxalq mükafatı və "Eyler" medalı ilə təltif olunub. Eldar Quliyev bu mükafatlara Avropa Təbiət Elmləri Akademiyasının Rəyasət Heyətinin 2019-cu il 19 fevral tarixli qərarı ilə ərzaq təhlükəsizliyinə həsr etdiyi kitaba və ərzaq təhlükəsizliyinə verdiyi töhfələrə görə layiq görülüb. Bununla bağlı mərasimdə Azərbaycan diasporunun üzvləri, ölkəmizin Almaniyadakı səfirliyinin əməkdaşları, elm adamları iştirak ediblər.

Tədbirin sonunda çıxış edən Eldar Quliyev hazırda Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində atılan addımlardan, bu sahədə yürüdülən dövlət siyasətindən söz açıb. Bildirib ki, bu gün ölkəmizdə qida təhlükəsizliyi sahəsində aparılan islahat xarakterli tədbirlər dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən strateji yol xəritələrinin və islahatların növbəti bir mərhələsi və tərkib hissəsidir. Milli iqtisadiyyat perspektivləri üzrə həyata keçirilən islahatlar, kənd təsərrüfatı və qida sənayesi sektorunda müasir standartların tətbiqi, qida təhlükəsizliyinə nəzarət sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi böyük əzm və qətiyyətlə davam etdirilir.

Söhbət zamanı Eldar Quliyev dedi ki, Vatikan dövləti ərzaq təhlükəsizliyi ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayır. Və hələ 2017-ci ildə Romada kitabın təqdimatı zamanı Vatikan nümayəndələri Eldar Quliyevə bu sahədə araşdırmaları davam etdirib-etdirməyəcəyi barədə sual veriblər. Onlara cavab verən alim araşdırmalarının davam etdiyini və yaxın illərdə bu mövzuda yeni kitabını təqdim edəcəyini bildirib. Beləliklə, təxminən iki ilə yaxın davam edən araşdırmalar nəticəsində Eldar Quliyev "Qida təhlükəsizliyinin gücləndirilməsi, problemləri və strateji istiqamətləri" adlı monoqrafiyasını ərsəyə gətirib. Amma bu dəfə mövzu ərzaq yox, qida təhlükəsizliyi ilə bağlıdır. "Ərzaq təhlükəsizliyi və qida təhlükəsizliyi fərqli anlayışlardır. Təsadüfi deyil ki, ölkəmizdə bu məsələ də diqqət mərkəzindədir və Qida Təhlükəsizliyi Agentliyinin yaradılması bunu təsdiq edir. Ərzaq təhlükəsizliyi qədər, qida təhlükəsizliyi də aktualdır. Monoqrafiyada qida təhlükəsizliyinin insan sağlamlığı üçün vacibliyi, düzgün qidalanmanın yolları, qida mədəniyyəti, qida rasionu, uşaqların qidalanması kimi vacib məsələlərə toxunulur, ayrı-ayrı iqlim qurşaqlarında yaşayan insanların fərqli qidalanmalı olduğu göstərilir. Monoqrafiya mütəxəssislər və tələbələr üçün elmi vəsait olacaq. Tədbirdə mən qida təhlükəsizliyinə həsr edilmiş növbəti elmi əsərimin artıq hazır olduğunu və 2019-cu ilin sonuna kimi çap olunacağını bildirdim" deyə Eldar Quliyev vurğuladı.

### Bundestaqda işgüzar görüşlər

Eldar Quliyev onu da bildirdi ki, həmin gün ölkəmizin Almaniyadakı səfiri Ramil Həsənovun iştirakı ilə Bundestaqda alman deputatlarla işgüzar görüşlər keçirib. Alman deputatlarla söhbətdə Eldar Quliyev ölkəmizdə həyata keçirilən islahatlardan, bu islahatların iqtisadiyyata, respublikanın hərtərəfli inkişafına və beynəlxalq nüfuzuna verdiyi töhfələrdən danışıb. O, xüsusilə sahibkarlığa göstərilən dövlət qayğısına toxunaraq bu sahənin daim dövlət tərəfindən dəstəkləndiyini, xüsusi proqramların qəbul olunduğunu vurğulayıb. Eyni zamanda qeyd olunub ki, Prezident İlham Əliyevin fevral ayında imzaladığı fərman və sərəncamlar 3 milyon vətəndaşın sosial rifahının daha da yaxşılaşmasına yol açıb. Söhbət zamanı Eldar Quliyev Prezident İlham Əliyevin imzaladığı son əfv fərmanına toxunaraq, bu fərmanın 400-dən çox məhkuma şamil olunduğunu və humanizm siyasətinin təntənəsi olduğunu bildirib.

Azərbaycanda son illərdə kənd təsərrüfatının, aqrar sahənin inkişafına göstərilən dövlət qayğısından danışan deputat sözügedən sahənin inkişafının stimullaşdırılması məqsədilə atılan ardıcıl, proqram xarakterli islahatlara da toxunub. Alman deputatlar ölkəmizin kənd təsərrüfatı məhsulları və onların Almaniyaya ixracı imkanları ilə maraqlanıblar. Görüşdə ekoloji məsələlərdən də söz açılıb. Eldar Quliyev Azərbaycanda ekoloji təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsinin problemlərin azalmasına və bu sahədə əsaslı dönüşün yaranmasına gətirib çıxardığını vurğulayıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də söz açılıb. Danışıqlar prosesinin gedişi, Azərbaycanın ədalətli mövqeyi, Ermənistan tərəfinin destruktivliyi, ermənilərin Dağlıq Qarabağdan narkotik qaçaqmalçılığı üçün istifadə etdikləri barədə alman həmkarlarını məlumatlandıran Eldar Quliyev ölkəmizin beynəlxalq hüquq normaları çərçivəsində ərazi bütövlüyünü bərpa edəcəyini bildirib.

Görüşdə alman deputatlar ölkəmizə səfərə dəvət ediliblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin komitə iclasında Gənclər Fondunun 2018-ci il ərzindəki fəaliyyəti haqqında hesabat dinlənilib

Aprelin 11-də Milli Məclisin Gənclər və idman komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasın əvvəlində komitənin sədri Ülvi Quliyev Azərbaycan Prezidenti İlham Əliyevin prezident seçkilərindən ötən 1 ildə gördüyü işlərdən, yürütdüyü gənclər və idman siyasətindən söz açıb, komitə üzvləri adından dövlət başçısına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Sonra komitədə "Azərbaycan Respublikasının Gənclər Fondunun 2018-ci il ərzindəki fəaliyyəti haqqında hesabat" dinlənilib. Slaydlarla müşayiət olunan hesabatı təqdim edən Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov bu qurumun yaranma tarixi və fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirib ki, ötən il fondun Müşahidə Şurasının 5 iclası keçirilib. Bir sıra bölgələrdə və şəhərlərdə XI qrant müsabiqəsinin maarifləndirmə görüşləri təşkil olunub. Müsabiqəyə 1095 layihə təqdim edilib, onlardan 370-i dəstəklənib. Həmin layihələrin icrasına 1 milyon 330 min 300 manat vəsait ayrılıb. Bakıda və Naxçıvanda müsabiqənin geniş təqdimatı keçirilib.

Fərid Cəfərov qeyd edib ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan tələbə gənclər arasından təhsil və dərsə davamiyyət göstəriciləri yüksək olan 237 tələbənin təhsil haqqı borcu fond tərəfindən ödənilib. Gənclərin vətənpərvərlik tərbiyəsi, inkişafı diqqət mərkəzində olub. Hesabat dövründə beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri genişləndirilib, maarifləndirici səfərlər təşkil olunub. Gənclər Fondunun xətti ilə 20 nəfər gənc 2 həftə müddətində Avropa İttifaqı təşkilatlarında, Avropa Parlamentində və Belçika Krallığının Xarici İşlər Nazirliyində, AŞ PA-nın sessiyalarında təcrübə keçib.

Deputatların diqqətinə çatdırılıb ki, daha səmərəli fəaliyyət göstərmək məqsədilə bu il Gənclərin Karyera və İnkişaf Mərkəzinin açılması, gənc.az portalının yaradılması nəzərdə tutulur.

İclasda çıxış edən deputatlar Əli Hüseynli, Azər Badamov, Elşən Musayev, Sevinc Hüseynova, Mahir Abbaszadə, Cavid Osmanov Gənclər Fondunun 2018-ci ildə gördüyü işləri və bu il həyata keçirəcəyi tədbirləri yüksək dəyərləndirib, tövsiyələrini bildiriblər.

Milli Məclisdə təcrübə keçən tələbə gənclər komitənin iclasında çıxış edərək təkliflərini və arzularını Gənclər Fondu rəhbərliyinin və deputatların diqqətinə çatdırıblar.

# “Azərbaycanda icbari tibbi sığortaya hazırlıq” mövzusunda görüş keçirilib





Aprelin 11-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin (TƏBİB) tabeliyinə verilən dövlət tibb müəssisələrinin rəhbər heyəti ilə “Azərbaycanda icbari tibbi sığortaya hazırlıq” mövzusunda görüş keçirib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşün keçirilməsində məqsəd rəhbər heyəti icbari tibbi sığorta sistemi, sistem çərçivəsində tibb müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi, tibbi xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görüləcək tədbirlərlə bağlı məlumatlandırmaq olub.

Görüşdə Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şirəliyev, Birinci vitse-prezidentin köməkçiləri Xalid Əhədov və Emin Hüseynov, agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev və 160-a yaxın dövlət tibb müəssisəsinin rəhbərləri iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən səhiyyə naziri Oqtay Şirəliyev qeyd etdi ki, ölkədə icbari tibbi sığortanın tətbiqi səhiyyənin maliyyələşdirilməsinin yeni mənbəyinin yaradılmasına, əhaliyə keyfiyyətli tibbi xidmətlərin göstərilməsinə, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, müalicə və diaqnostik imkanlarının genişləndirilməsinə gətirib çıxaracaq. Göstərilmiş tibbi xidmətlər müqabilində tibb işçilərinin mövcud əməkhaqlarına müəyyən olunmuş əlavələr onların əməyinin stimullaşdırılmasına və sosial rifah halının yüksəldilməsinə yol açacaq.

Birinci vitse-prezidentin köməkçisi Xalid Əhədov Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın səhiyyəyə ayırdığı diqqətdən danışıb. Onun sözlərinə görə, Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxt və regionlarda sağlamlaşdırıcı aksiyalar, ürək çatışmazlığından və digər patologiyalardan əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir. X.Əhədov icbari tibbi sığortanın pilot layihə çərçivəsində tətbiq olunduğu ərazilərdə müsbət nəticələr əldə olunduğunu vurğulayıb.

İcbari tibbi sığortanın tətbiqi çərçivəsində dövlət tibb müəssisələri ilə əməkdaşlıq perspektivləri barədə danışan agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev, səhiyyəyə ayrılan vəsaitlərin səmərəli istifadəsində, səhiyyənin maliyyələşdirilməsi üçün yeni resursların cəlb edilməsində icbari tibbi sığortanın əhəmiyyətini qeyd edib. Z.Əliyev xəstəxanadaxili qeydiyyat sisteminin yeni tələblərə uyğun qurulmasının vacibliyini vurğulayıb.

Agentliyin Səhiyyə siyasəti və kliniki kodlaşdırma şöbəsinin müdiri Şərafət İsmayılova “Xəstəxanaların icbari tibbi sığorta sisteminə keçidlə bağlı hazırlıq tədbirləri” mövzusunda təqdimatla çıxış edib. O, icbari tibbi sığortanın gələn ildən ölkə üzrə tətbiqi məqsədilə xəstəxanaların qeydiyyat sisteminin təkmilləşdirilməsinin, təchizatının yaxşılaşdırılmasının, ilkin səhiyyə xidmətinin təkmilləşdirilməsinin vacibliyini vurğulayıb. Ş.İsmayılova, həmçinin icbari tibbi sığortanın xidmətlər zərfi və maliyyə mənbələri barədə də danışıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli fərmanına əsasən 2020-ci il yanvarın 1-dən etibarən dövlət səhiyyə sisteminə daxil olan bir sıra tibb müəssisələri agentliyin nəzdində yaradılan TƏBİB-in tabeliyinə veriləcək.

# BMT-də gənclərin məşğulluğu ilə bağlı əlaqələndirmə komissiyasının yaradılması təklif olunub



Amerika Birləşmiş Ştatlarının (ABŞ) Nyu York şəhərində Birləşmiş Millətlər Təşkilatının baş qərargahında 8-ci İqtisadi və Sosial Şuranın Gənclər Forumu öz işinə başlayıb. BMT İqtisadi və Sosial Şurasının prezidenti xanım İnqa Rhonda Kinq, Baş Assambleyanın prezidenti xanım Maria Fernanda Espinosa Qarces, BMT baş katibinin gənclər üzrə xüsusi nümayəndəsi Jayathma Vickramanayake və digər rəsmilərin iştirak etdikləri forumda Azərbaycanı gənclər və idman naziri Azad Rəhimov təmsil edib.

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, nazirlərin, rəsmilərin, gənclər sahəsinə məsul nümayəndələrin qatıldıqları forumda “Gənclik 2030: Gənclərlə və gənclər üçün işləmək”, “Gənclərin inkişafına investisiya: Maliyyələşdirmə və digər tətbiq vasitələri” və s. mövzular ətrafında fikir mübadilələri aparılıb, gələcək planlar müzakirə edilib.

Azad Rəhimov çıxış edərək bildirib ki, “Gənclik 2030” gündəliyinin reallaşması üçün dövlət könüllülərin sayının artırılması, könüllülük fəaliyyətinin inkişafı, könüllülərə dəstək verilməsi üçün mühüm addımlar atır: “2018-ci ilin may ayından start götürən Dayanıqlı İnkişaf Məqsədləri üzrə seçilmiş 17 gənc səfirin ölkəmizdə təqdimat və mükafatlandırma mərasimi də keçirilib. BMT modeli gənclər üçün yeni biliklərin əldə olunması, tənqidi yanaşma, motivasiya istiqamətində seçim, təlim və effektiv inkişaf mexanizmidir”.

Azad Rəhimov onu da vurğulayıb ki, Azərbaycan ərazilərinin 20 faizi Ermənistan tərəfindən zəbt edilib və öz yurd-yuvalarından didərgin düşən insanların böyük əksəriyyəti məhz gənclərdir.

Plenar iclasda çıxış edən nazir Minilliyin İnkişaf Məqsədləri (2000-2015) və Dayanıqlı İnkişaf Məqsədləri (2016-2030) proqramlarının həyata keçirilməsindən öncəki mərhələdə ölkənin əldə etdiyi uğurlardan, qarşıya qoyulan məqsədlərdən və proqramlardan irəli gələn öhdəliklərdən danışıb. O, BMT-nin çətiri altında sadəcə görüşlərin və müzakirələrin aparılması deyil, gənclərin məşğulluğunun təmin olunması istiqamətində real işlərin görülməsi məqsədilə xüsusi əlaqələndirmə komissiyasının yaradılması təklifini irəli sürüb.

ABŞ-a səfəri çərçivəsində Azad Rəhimov BMT-nin baş katibinin gənclər üzrə elçisi xanım Jayathma Vickramanayake, BMT İqtisadi və Sosial Şurasının prezidenti xanım İnqa Rhonda Kinq, Serbiyanın gənclər və idman naziri Vanja Udovicic, Rusiya nümayəndə heyətinin BMT İqtisadi və Sosial Şurasında rəhbəri, gənclər siyasəti üzrə Federal Agentliyin nümayəndəsi Aleksandr Buqayev, Ukraynanın gənclər və idman naziri İqor Jdanov, Avstriyanın ailə məsələləri üzrə naziri Yuliane Boqner-Ştrauss, Əfqanıstanın gənclər məsələləri üzrə nazir müavini Kamal Sadat ilə görüşlər keçirib. Görüşlərdə gənclərin məşğulluğu sahəsində informasiya mübadiləsi aparılıb, qarşılıqlı layihələr haqqında danışılıb, eyni zamanda, Rusiya və Azərbaycan arasında “Tələbə baharı” və digər layihələrin reallaşması mövzuları müzakirə olunub.

***E.CƏFƏROV,***
***“Azərbaycan”***

# Avropanın idman tarixi yenidən Azərbaycanda yazılacaq



*Əvvəli 1-ci səh.*

Tədbirdə Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK baş katibinin müavini Azər Əliyev və digər şəxslər iştirak edəcəklər. Mərasimdə Avropa Olimpiya Komitəsinin prezidenti Janez Koçijançiç, İtaliya Olimpiya Komitəsinin prezidenti Ciovanni Malaqo və digər ölkələrin milli olimpiya komitələrinin nümayəndələrinin iştirakı gözlənilir.

## Gənc avropalı idmançıları bir araya gətirən yarış

Xatırladaq ki, Avropa Gənclər Festivalı ideyası gənclərə Olimpiya hərəkatını, dəyərlərini və ideallarını öyrətmək, təbliğ etmək üçün Jak Roq tərəfindən 1990-cı ildə irəli sürülmüşdü. 14-18 yaşlılar arasında gənc avropalı idmançıları bir araya gətirən yarış ilk dəfə 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib. İki ildə bir dəfə (cüt deyil, tək illərdə) - qışda və yayda keçirilən Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur. Festival digər qitələrdə keçirilən Asiya Gənclər Oyunları və ya Panama Gənclər Oyunları kimi ənənəni Avropada davam etdirmək imkanını yaradır.

Festivala evsahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən təsnifat mərhələsi olmadan iştirak etmək hüququ qazanır.

## 10 olimpiya festivalında iştirak, 17 qızıl medal

Azərbaycan təmsilçiləri olimpiya festivallarında 1993-cü ildən çıxış etməyə başlayıblar. Atletlərimiz indiyədək iştirak etdikləri festivallarda yüksək nəticələr qazanıblar. Bu yarışlarda uğurlar əsasən cüdo və atletika idman növlərində əldə olunub. Azərbaycanın yeniyetmə idmançıları buna qədər keçirilmiş Avropa Yeniyetmələrinin 13 olimpiya festivalından 10-da iştirak edib və ümumilikdə 45 medal (17 qızıl, 10 gümüş, 18 bürünc) qazanıblar. Bu idman yarışlarında əldə olunmuş 45 medaldan 38-i cüdoçularımızın (13 qızıl, 9 gümüş, 16 bürünc), 7-si isə atletlərin (4 qızıl, 1 gümüş, 2 bürünc) payına düşür.

Xatırladaq ki, 2015-ci ildə Gürcüstanın paytaxtı Tbilisidə təşkil edilən XIII Avropa Gənclərinin Olimpiya Festivalı atletlərimiz üçün uğurlu olmuşdu. İdmançılarımız 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanmaqla ümumi turnir cədvəlində 22-ci yeri tutmuşdular.

2017-ci ildə Macarıstanın Gyor şəhərində keçirilən Yeniyetmələrin sayca 14-cü Olimpiya Festivalında isə qitənin 50 ölkəsindən 3600-ə qədər idmançı medallar uğrunda mübarizə aparıb. Komandamız yarışın yekununda 50 ölkə arasında 33-cü yeri tutub. 41 idmançı ilə turnirə yollanan yığmamız iki medalla kifayətlənməli olub. Cüdoçulardan 40 kq çəki dərəcəsində yarışan Vüsalə Kərimova festivalın gümüş medalına layiq görülüb. Adil Kərimli isə (-90 kq) bürünc medal qazanıb.

Rusiya yığması 30 qızıl, 19 gümüş və 12 bürünc medalla ümumi komanda hesabında birinci yeri tutub. 14 qızıl, 11 gümüş, 13 bürünc medal əldə edən İtaliya millisi ikinci olub. Ev sahibləri isə festivalda 13 qızıl, 14 gümüş və 14 bürünc medala yiyələniblər.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## Elm xadimləri

# Çoxları üçün ideal insan

Tale elə gətirib ki, onun haqqında düşüncələrimi, tək indi yox, müxtəlif yubiley yaşlarında da qələmə almışam. Bu insanın mənim üçün kim olduğunu sözlərin rəngi ilə təsvir etməyə çalışmışam. İndi isə qarşımdakı 80 rəqəmini görəndə əvvəlcə bir anlıq tərəddüddə qaldım. Zamanın özünü bizə hiss etdirmədən belə tez keçməsi adamı heyrətləndirir. Elə bilirəm ki, o, hələ də ilk dəfə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində gördüyüm yaşdadır.



Amma tez öz yaşımı nəzərə alıram və onda anlayıram ki, daha özüm də universitet tələbəsi deyiləm, vaxt bizi o vədələrdən çox uzaqlaşdırıb. Vaxtın hər kəsə yeganə qazancı isə insanın mənəvi-əxlaqi dəyərlərə, prinsiplərə sadiqliklə əldə etdiyi şəxsiyyət ucalığıdır, müdriklikdir.

Belə bir insan haqqında yazıram. O, Azərbaycanda hüquq elminin görkəmli simalarından olan, Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor Firudin Yusif oğlu Səməndərovdur.

...12 aprel 1939-cu ildə Saatlı rayonunun Molday kəndində əkinçi ailəsində anadan olub. Belə bir ailədə doğulmasını onun ömür yolunda xüsusi qeyd etməyim səbəbsiz deyil. Əkinçilik torpağa bağlılıqdır, zəhmətdir, halallıqdır, bar yetirən sağlam toxumlardır. Firudin müəllim də onun 80 illik ömrünün əsas cizgilərinə çevrilmiş bu keyfiyyətləri, görünür, ata-anasından əxz edib. Əkinçi saflığını, mənəviyyatını ömrün hər bir məqamında qoruyub. Onun ailədən gələn bu saflığın, mənəvi işığın davamı kimi səpdiyi toxumlarsa tələbələrinə verdiyi bilikdir, onlara təlqin etdiyi dəyərlərdir.

Firudin müəllim müharibə uşaqları adlanan nəslin təmsilçilərindəndir. Bir çox həmyaşıdları kimi onun da uşaqlığı İkinci Dünya müharibəsi illərinə və ondan sonrakı çətin dövrlərə təsadüf edib. Həyata gözünü açanda ətrafındakı doğmalarını, əzizlərini, el-obanı çətinliklər içində görüb. Xarakterindəki xeyirxahlıq, mərhəmət, insanlara əl tutmaq, kömək etmək hissi, bəlkə də uşaqlıqda yaşadığı çətinliklərdən gəlir.

## Müharibə illərinin uşağı

Müharibə illərinin uşağı olmaq nə deməkdir - bunu hamımız bilirik. O dövrün uşaqları çox əziyyətlə böyüyüblər, oxuyublar, bəzən məktəbdə təhsil ala-ala işləyiblər, ailəyə kömək ediblər. Təxminən belə bir həyatı Firudin Səməndərov da yaşayıb.

1948-1958-ci illərdə Firudin müəllim Səməd Vurğun adına Saatlı qəsəbə orta məktəbində oxuyub. Məktəbi gümüş medalla bitirib. Sonra üç illiyə keçmiş sovet ordusunun sıralarında qulluq etməyə gedib. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olub. O dövrdə bir tələbə üçün ən yüksək təhsil nailiyyətlərindən sayılan Lenin təqaüdü ilə oxuyub. 1966-cı ildə təhsilini başa vurarkən biliyini, elmə marağını nəzərə alaraq onu ADU-nun Cinayət hüququ kafedrasına aspirant qəbul ediblər.

1970-ci ildə “Qətl cinayətlərini doğuran halların və davranış motivinin cəza təyininə təsiri” mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək hüquq elmləri namizədi elmi dərəcəsi alıb. 1969-cu ildən ADU-nun Cinayət hüququ kafedrasında müəllim, dosent vəzifələrində çalışıb. Firudin Səməndərov 1985-1989-cu illərdə ADU-nun Hüquq fakültəsinin dekanı, 1992-1993-cü illərdə universitetin rektoru olub. 1995-ci ildən BDU-nun Cinayət hüququ və kriminologiya kafedrasının müdiri kimi çalışıb. 1996-cı ildə “Hüquqi şüur və cinayət hüquq yaradıcılığı” mövzusunda doktorluq işini müdafiə edib, hüquq elmləri doktoru elmi dərəcəsi alıb. 1997-ci ildən kafedranın professorudur.

## Elmi yaradıcılıq fəaliyyəti çox məhsuldardır

O, 30-dan çox dərsliyin, dərs vəsaiti və monoqrafiyanın müəllifidir. “Cinayətin subyektiv cəhəti”, “Cinayət hüququ. Cinayət və cəza məsələləri”, “Cinayət hüququ. Ümumi hissə” dərslikləri, “Şəxsiyyət əleyhinə edilən cinayətlər” adlı dərs vəsaiti, “Cinayət hüququnda cəza problemi: tarix və müasirlik” monoqrafiyası (2009), “Kriminologiya” dərs vəsaiti (2012), “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası” birgə müəlliflikdə (2013), “Cinayət hüququ. Ümumi hissə” (2013), Moskvada 2011-2012-ci illərdə rus dilində nəşr edilən “Uqolovnoe pravo Azerbaydjanskoy Respubliki. Obşaya çast (v soavtorstve)”, “Uqolovnoe pravo Azerbaydjanskoy Respubliki. Osobennaya çast (v soavtorstve)” və bu qəbildən olan bir çox əsərləri hüquq elminə dəyərli töhfələridir. Müxtəlif elmi nəşrlərdə 100-dən artıq elmi məqaləsi, respublika mətbuatında dövrümüzün aktual problemlərinə həsr edilmiş çoxsaylı məqalələri işıq üzü görüb.

Onun yazdığı irihəcmli “Cinayət hüququ. Ümumi hissə” dərsliyi 2002-ci ildə Respublika Kitabsevərlər Cəmiyyətinin mükafatına layiq görülüb. Hazırda respublikamızda bu sahədə ən mükəmməl dərslik sayılır.

Cinayət hüququ hüquq sahəsinin öz mürəkkəbliyi və çətinliyi ilə seçilən qoludur. Bu sahə ilə bağlı hər hansı yeni fikir söyləmək o qədər də asan deyil. Bütün bunlara baxmayaraq, Firudin müəllimin cinayət hüququ sahəsində yazdığı əsərlərdə dərin tədqiqatların nəticəsi olaraq gəldiyi qənaətlər hüquq elmi üçün mühüm əhəmiyyət daşıyır. Onun elmi əsərlərində nəzəriyyə və praktik fəaliyyət üst-üstə düşür. Cinayətin yeni anlayışının verilməsi, milli hüququn bu sahəsinin prinsiplərinin dəqiqləşdirilməsi, dünya təcrübəsinin ümumiləşdirilərək istifadə edilməsi, dini hüquq sistemlərinin əsas müddəa və prinsiplərinin tədqiqi də Firudin Səməndərovun elmi uğurlarıdır.

Professor Firudin Səməndərovun iştirakı və redaktorluğu ilə ilk dəfə Azərbaycan dilində hazırlanmış “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası” kitabı cinayət hüququ sahəsi ilə məşğul olan tədqiqatçıların və hüquq mühafizə orqanları işçilərinin stolüstü kitabına çevrilib. Onun müəllifi olduğu bu kitabı belə dəyərli edən odur ki, nəşr cinayət qanununun həm ümumi, həm də xüsusi hissəsini əhatə edir və cinayət qanununun praktikada düzgün tətbiqinə bələdçidir. Təsadüfi deyil ki, bu kommentariya indiyə kimi 6 dəfə nəşr olunub.

Professor Firudin Səməndərov ölkəmizdə hüquqi dövlət quruculuğu prosesinə, aparılan islahatlara, cəmiyyətimizdə qanunun aliliyinin təmin olunmasına bir sıra qurumlardakı fəaliyyəti ilə də töhfə verir. O, 1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Hüquqi İslahatlar Komissiyasının, eyni zamanda Ali Məhkəmə yanında Elmi Məsləhət, Respublika Prokurorluğu yanında Elmi-Metodik Şuranın üzvü olmuşdur. Azərbaycan Respublikasının hazırda qüvvədə olan 1999-cu il Cinayət Məcəlləsinin müasir tələblər və beynəlxalq standartlar səviyyəsində hazırlanmasında yaxından iştirak edib. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun və respublika Ali Məhkəməsi Plenumunun qərarlarının hazırlanmasında, qanunun mübahisəli məqamlarının aydınlaşdırılmasında da Firudin müəllimin böyük əməyi olub.

## Elm ustadı

Professorun Azərbaycanda hüquq elminin inkişafına verdiyi töhfələr təkcə bununla məhdudlaşmır. Firudin müəllim bu sahədə mükəmməl, yüksəkixtisaslı kadr potensialının formalaşmasında, hüquq elminin dərinliklərinə bələd olan yeni mütəxəssislərin yetişdirilməsində bir pedaqoq, elm ustadı kimi əvəzsiz xidmətlər göstərib. Alimin rəhbərliyi altında 3 hüquq üzrə elmlər doktoru, 50-dən çox fəlsəfə doktoru hazırlanıb. O, Azərbaycanın əməkdar hüquqşünasıdır.

Firudin müəllimi Azərbaycanda cinayət hüququ elmi məktəbinin əsas yaradıcılarından biri və bəlkə də birincisi saymaq olar. Onun formalaşdırdığı bu elmi məktəbin indi yüzlərlə davamçısı var. Firudin Səməndərov elm sahəsində qazandığı uğurlarla Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, xalqımızın elmi potensialının daha da gücləndirilməsinə xidmət göstərir. Onun elmi tədqiqatlarının miqyası və əhəmiyyəti yalnız respublikamızda deyil, beynəlxalq aləmdə də yüksək qiymətləndirilir. Elə bunun nəticəsidir ki, o dəfələrlə müxtəlif ölkələrdə dünya miqyaslı və regional elmi konfranslarda Azərbaycanı ləyaqətlə təmsil edib.

Professor üçün ardıcıllıq, millilik, milli-mənəvi dəyərlərə bağlılıq, millətin azadlığı, ölkəsinin müstəqilliyi əsasdır. Ona görədir ki, hələ sovet dönəmində müəyyən vəzifə tutmuş adamların ana dilində danışmağa ehtiyat etdikləri zamanlarda Firudin müəllim hüquq sahəsinə milli dil gətirmişdi. Hüquq elminə dair yazı və çıxışlarını doğma Azərbaycan dilində edirdi.

## O, ideya adamıdır

Tariximizə, soykökümüzə, Azərbaycanın istiqlalına bağlılıq onun qanından, ruhundan irəli gəlir. Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanda milli azadlıq hərəkatı başlayıb kükrəyən zaman Firudin Səməndərov prinsipial, qorxmaz, cəsarətli, kütlənin önündə gedib onu düzgün istiqamətləndirməyi bacaran ziyalılardan idi. O, bu gün də Azərbaycana, ölkəmizin istiqlalına, milli dövlətimizə xidmət missiyasını elmi-pedaqoji fəaliyyəti, yazdığı kitablarla, hazırladığı kadrlarla, cəmiyyətin hüquqi cəhətdən maariflənməsi prosesində yaxından iştirakı ilə davam etdirir.

Müəllim şərəfli bir sözdür. Həyatımızda bilikdən, öyrənməkdən dəyərli nəsə yoxdur, müəllimsə öyrədən deməkdir. Bu mənada Firudin müəllim bu sözü ən çox haqq edən ziyalılarımızdandır. Müəllimlik, sanki necə deyərlər, onun boyuna biçilib. Bizim tələbəlik vaxtlarımızda hətta dərslərə ən etinasız yanaşan tələbələr belə Firudin müəllimin mühazirələrini dinləmək üçün auditoriyaya tələsərdilər. Tələbələrin Firudin müəllimin dərslərinə münasibətini sonralar da belə gördüm. Çünki onun oxuduğu mühazirələr bir qayda olaraq dərinliyi, nəzəri və elmi fikirlərin zənginliyi, həyati faktlarla dolğunluğu ilə fərqlənir. Ona görə də tələbələrin bütün diqqəti bu mühazirələrdə cəmləşir.

Tələbələri ilə elə münasibət qurur ki, onlar müəllimə hörmət və ehtiram göstərməklə bərabər, onu həm də özlərinin yaxın dostu, arxa-dayağı, xeyirxahı hesab edirlər. Zəngin həyat təcrübəsi, dünyanın hər üzünü görmüş bu işıqlı insanın keçdiyi ömür yolu tələbələr üçün bir örnək yaradır. Nə vaxtsa Firudin müəllimin özünə ideal seçdiyi şəxsiyyətlər, şübhəsiz ki, olmuşdu. Bu günsə onun özü 80 illik şərəfli bir ömürlə çoxları üçün idealdır. Onu özünə ideal seçən hər kəs təkcə F.Səməndərovdan necə alim olmağı deyil, həm də necə insan olmağı, necə yaşamağı öyrənir.

Hər dəfə auditoriyaya daxil olub mühazirəyə başlamazdan əvvəl tələbələri ilə ədalət və əxlaq həqiqətləri barədə qısa söhbət onun adətidir. Firudin müəllim bu cür söhbətlərlə insan səadəti və azadlığı naminə fədakarlığı, mənəvi məsuliyyəti müasir humanist ideya kimi diqqətə çatdırır. Gənclərə bu ideyanın ardınca getməyi təlqin edir. Hər bir yetirməsinin fərdi və əməli səadətinə, xeyirli, zəkalı və işıqlı sabahına bütün qəlbini, varlığını həsr edir.

## Ömrün 80-ci zirvəsi

Bu yaşın gətirdiyi böyüklük, xilqətən böyüklükdür, müdriklikdir. Firudin Səməndərov bu ucalığı ömrünün 80-ci zirvəsində fəth etməyib. Mənə elə gəlir ki, o, elə həyatının bütün mərhələlərində bu ucalıqda qərar tutub. Ulularımızdan bir söz yadigarı var: böyük-kiçik yeri bilmək. Çoxumuza elə gəlir ki, bu söz ancaq yaşca kiçiklərə aiddir. Yaşca böyüyün yolunu gözləmək, hörmətini saxlamaq həqiqətən kiçik üçün mənəvi borcdur. Amma bu hikmətin başqa tərəfi də var. Əslində, yaşca kiçiyə hörmətlə yanaşmaq, onunla münasibətləri düzgün çərçivədə qurmaq da böyüyün öhdəliyidir. Yaşca böyük olanlardan bu həqiqəti çox az adamın anladığını görmüşəm. Amma Firudin müəllim də hər zaman o azların arasında olub. Yaşın müdrik çağlarına gəlib çatmış bir həmkar, ustad, dost başqaları ilə necə davranmalıdır, onun nümunəsini, meyarlarını formalaşdıran adamlardan biridir Firudin müəllim.

Firudin müəllim həm də gözəl ailə başçısıdır. Ömürgün yoldaşı Lalə xanım, oğlu Yusif, qızı Aydan da bizə doğmadır. Aydan ixtisasca psixoloqdur, psixologiya üzrə fəlsəfə doktorudur, dosentdir, BDU-da elmi-pedaqoji fəaliyyətlə məşğul olur. Yusif isə praktiki sahədə fəaliyyət göstərir. Bu ocaqda indi baba və nənənin adını daşıyan balaca Firudin və Lalə də böyüyür.

